# MUSİQİ

METODİK VƏSAİT




4

*NƏRGİZ RƏCƏBOVA*
*ŞƏHLA QULİYEVA*
*ZEMFİRA ƏLİYEVA*

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*

# MUSİQİ

*fənni üzrə dərsliyin*
***metodik vəsaiti***

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT

*Giriş* ..... 3
*4-cü sinif Musiqi fənni üzrə məzmun standartları* ..... 11
*Məzmun standartları və fənlərarası inteqrasiya cədvəli* ..... 12
*Tədris proqramının illik planlaşdırma cədvəli* ..... 14

*Dərslərin gündəlik planlaşdırılması*

**I bölmə. Xalq musiqisi və professional musiqi**

1. "Vətənimin seyrinə çağırıram elləri" ..... 17
2. Bəstəkarların əsərlərində xalq musiqisi ..... 19
3. Musiqili körpülər ..... 21

*Kiçik summativ qiymətləndirməyə aid tapşırıqlar (I bölmə)* ..... 23

**II bölmə. Musiqi kollektivləri**

4. İnstrumental ansambllar ..... 24
5. Rəqs ansamblları ..... 25
6. Vokal kollektivləri ..... 26

**III bölmə. Musiqi əsərlərinin melodiyaları**

7. Mahnının melodiyası və mətni ..... 28
8. Melodiyada intervallar ..... 30
9. Musiqi ifadə vasitələri ..... 31

**IV bölmə. İkisəsli musiqi**

10. Musiqidə əks-səda ..... 33
11. Ritmik ikisəslilik ..... 35
12. Kanon ..... 36
13. Səsaltı sədalar ..... 37

Musiqili krosvord ..... 38

**V bölmə. Musiqi və incəsənətin başqa növləri**

14. Musiqi və ədəbiyyat ..... 39
15. Musiqili ekran ..... 40
16. Musiqili tamaşa ..... 42
17. Daşları canlandıran sənət və musiqi ..... 43
18. Novruz əyləncələri ..... 45

**VI bölmə. Musiqili şəkillər**

19. Musiqidə portret ..... 47
20. Musiqili natürmort ..... 49
21. Musiqidə təbiət lövhələri ..... 50
22. Sərgidə ..... 52

**VII bölmə. Konsert zalında**

23. "Canım mənim, məmləkətim!" ..... 53
24. Afişa ..... 55
25. Konsertə hazırlıq ..... 56
26. Bayram konserti ..... 58

"Musiqili hədiyyə" oyunu .....

*Musiqi repertuarı* ..... 59
*İstinad edilmiş mənbələr* ..... 88

# GİRİŞ

Hörmətli müəllim!

Musiqi çox gözəl və güclü tərbiyə vasitəsidir. O, şagirdlərin ümumi təfəkkürünün, fəal qavrama və əməli fəaliyyətinin inkişafında, təlimə marağının artırılması və onlar üçün öyrənmənin asanlaşdırılmasında böyük rol oynayır. Musiqi fəaliyyətinin bütün növləri – istər musiqi dinləmə, istərsə də mahnıoxuma, musiqili-ritmik hərəkətlərin yerinə yetirilməsi və s. xüsusi şəkildə şagirdin şüuruna, onun davranışına və ümumi dünyagörüşünə təsir göstərir. Uşaqlara ümumi musiqi təhsili vermək, onları zəngin musiqi sənətinə cəlb etmək, ən yaxşı xalq musiqisi, Azərbaycan və xarici bəstəkarların əsərləri nümunəsində estetik zövqü formalaşdırmaq, fəal bədii özfəaliyyət iştirakçılarını, musiqi-estetik biliklərin təbliğatçılarını tərbiyə etmək musiqi-estetik tərbiyəsinin əsas istiqamətləridir. Ümumitəhsil müəssisələrdə musiqi tədrisinin əsas məqsədi musiqi bacarıqlarını formalaşdırmaq və inkişaf etdirmək, şagirdlərdə bədii zövq formalaşdırmaq, keyfiyyətli musiqiyə qarşı maraq oyatmaq, yaradıcılıq qabiliyyətlərini üzə çıxartmaqdır.

Dərslik komplekti Musiqi fənni üzrə təhsil proqramı, dərslik və tədris vasitələrinin tərtibinə qoyulan tələblər, tədris materialının planlaşdırılması, təlim üsullarının müəyyənləşdirilməsi və müəllimin hazırlığının həyata keçirilməsi üçün müvafiq təlimatlar əsasında yazılmışdır. Dərslik komplektinin məzmunu şagirdin təhsil nailiyyətlərini aşkara çıxarır və milli şüurun formalaşmasına kömək edir.

## Dərslik

IV sinif ibtidai təhsil səviyyəsinin sonuncu ilidir. Bunu nəzərə alaraq IV sinfin tədris materialı daha dərin və geniş təqdim olunmuşdur. Dərsliyə daxil edilmiş müxtəlif məzmunlu mətnlər, musiqi materialı, rəqs elementləri, tapşırıqlar, oyunlar və s. şagirdlərin musiqi sahəsində bilik, bacarıq və vərdişlərə yiyələnməsinə kömək edir, onların dünyagörüşünü zənginləşdirir, bədii zövqünü formalaşdırır. Beləliklə, musiqini dinləmə, xorla oxu, sadə musiqi alətlərində çalma, rəqsetmə, ritmik və improvizəetmə bacarıqları formalaşır və inkişaf edir.

Dərslikdə mövzular ənənəvi (bax: Musiqi fənni üzrə I–III siniflər üçün dərslik) olaraq 7 bölmədə qruplaşdırılmışdır:

I – “Xalq musiqisi və professional musiqi”
II – “Musiqi kollektivləri”
III – “Musiqi əsərlərinin melodiyaları”
IV – “İkisəsli musiqi”,
V – “Musiqi və incəsənətin başqa növləri”
VI – “Musiqili şəkillər”
VII – “Konsert zalında”

Hər bölmədə verilmiş tədris materialları və tapşırıqlar IV sinif üçün Musiqi fənn kurikulumunun standartlarının reallaşmasına xidmət edir. Öyrənilən musiqi əsərlərinin, dərsin mövzusu ilə bağlı digər materialların videoçarxları və səsyazmaları dərslikdə QR kodlarla təqdim olunmuşdur. Onların vasitəsilə şagirdlər həm dərsdə, həm də evdə müstəqil olaraq həmin materallarla tanış ola bilərlər.

Bu tədris ilində də şagirdləri musiqi aləminə səyahətə Saz və Ney personajları dəvət edir. Hər dərs Ney personajı dərsin tədqiqat sualını təqdim edir, dərsin refleksiv sualı isə Saz personajı vasitəsi ilə şagirdlərə çatdırılır. Hər bir bölmənin başlanğıcında (əvvəlki siniflərdə olduğu kimi) şagirdlərə tanış olan notların şərti obrazları kiçik xülasə ilə həmin bölmənin məzmunu haqqında qısa məlumat verir. Şagirdlərin yaş xüsusiyyətlərini və obrazlı təfəkkürü-

nü nəzərə alaraq dərslikdə, musiqi ifadə vasitələri də obrazlarla verilmişdir: Melodiya, Ritm, Temp, Lad, Ölçü, Dinamika, Tembr və Registr.

IV sinif Musiqi dərsliyində müəyyən qədər nəzəri biliklər haqqında sadə məlumatlar və çoxlu sayda praktik tapşırıqlar verilmişdir. Melodiya, ritm, temp, lad, ölçü, dinamika, tembr və registr kimi musiqi ifadə vasitələri, musiqi əsərlərinin xarakteri, məzmunu, Azərbaycan və Avropa musiqi alətləri, musiqi kollektivləri haqqında məlumatlar verilmişdir. Dərslikdə Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, bir necə xarici bəstəkarların əsərləri də verilmişdir.

Tədris materialı şagirdlərin müstəqil təliminə, musiqi biliklərinin artmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürünün formalaşmasına imkan verir, musiqi haqqında müəyyən fikir bildirməyə kömək edir. Musiqi və incəsənətin digər janrları, musiqinin məzmunu və xarakteri, musiqi ifadə vasitələri, musiqi kollektivləri, ikisəsli musiqi və s. haqqında məlumatlar isə şagirdlərə praktik şəkildə və müxtəlif musiqili oyunların köməyilə mənimsədilir.

Dərslikdə *mahnının oxunması, musiqi əsərinin dinlənilməsi, obrazın təsvir edilməsi, təqdimatın hazırlanması, zərb musiqi alətlərində çalma, rəqs elementlərinin, dirijorluq hərəkətlərinin və ritmik məşğələlərin yerinə yetirilməsi* kimi fəaliyyət növləri *(praktik tapşırıqlar)* yaş səviyyəsi, dərketmə qabiliyyəti, maraq və ehtiyaclarını nəzərə almaqla şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir.

Dərslikdən daha səmərəli istifadə etmək üçün hər fəaliyyət növü fərqli simgələrlə göstərilmişdir:


Oxuma


Rəqsetmə


Dinləmə


Tapşırıq


Özünü yoxlama


Lüğət

**Dərslikdəki QR kodlara müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.**



Mövzunun anlaşılması üçün zəruri olan anlayışlar lüğətdə sadə formada təqdim olunmuşdur. Yeni materialın dərk edilib daha yaxşı mənimsənilməsi üçün dərslikdə müxtəlif sxemlərə, cədvəllərə, rəsmlərə, musiqi əsərlərinin ritmik şəkillərinə, rəqs elementlərinin sxemlərinə və s. geniş yer verilmiş, bir neçə tapşırığın yerinə yetirilməsi üçün nümunələr göstərilmişdir. Dərslikdə mahnıların mətni *(sözləri)* yerləşdirilmişdir. Bölmələrin sonunda həmin bölmə üçün nəzərdə tutulmuş standartlar əsasında "Özünü yoxlama" rubrikasında *(bu rubrika da simgə ilə verilmişdir)* müxtəlif məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına xidmət edən tapşırıqlar verilib. Dərslikdə tədris materialının mənimsənilməsini yoxlamaq məqsədilə I yarımildə reallaşması nəzərdə tutulan standartların və musiqi materialının əsasında "Musiqili krosvord" *(səh. 42)*, II yarımil üçün isə "Musiqili hədiyyə" *(səh. 76)* oyunu verilmişdir. I–IV siniflərdə şagirdlərin öyrəndikləri biliyi və yiyələndikləri bacarıqları refleksiya etmək üçün "Öyrəndiklərimiz" adı altında verilmişdir *(səh. 78-79)*.

İbtidai təhsil səviyyəsini bitirən şagirdləri həvəsləndirmək məqsədilə dərsliyə "Saz və Neyin diplomu" yerləşdirilmişdir *(səh. 80)*.

## Metodik vəsait

Metodik vəsait tövsiyə xarakteri daşıyır. Müəllim qurduğu dərslərdə müvafiq və məqsədəuyğun dəyişikliklər edə bilər. Hər bir dərsin məqsədi *(təlim nəticəsi)* həmin dərsdə reallaşan standartlara görə müəyyənləşdirilmişdir. Fəndaxili inteqrasiyanı təmin edərək hər dərsdə musiqi fənn kurikulumunun məzmun xətləri əlaqəli göstərilmişdir. Fənlərarası inteqrasiya Azərbaycan dili, Riyaziyyat, Həyat bilgisi, Təsviri incəsənət, Fiziki tərbiyə fənləri ilə yaradılmışdır. Bu inteqrasiya şagirdlərdə eyni bacarıqların daha yaxşı formalaşmasına xidmət edəcəkdir.

Tədris materialının planlaşdırılmasında təlimin şüurluluq, fəallıq və müstəqillik prinsipi, sistemlilik və ardıcıllıq, sadədən mürəkkəbə, əyanilik və digər prinsipləri gözlənilmişdir, şagirdlərin yaş xüsusiyyətləri və anlama səviyyəsi nəzərə alınmışdır. Müəllim üçün metodik vəsaitdə 7 bölmə üzrə mövzuların icmalları təqdim edilmişdir. Hər bölmənin əvvəlində onun məzmununa görə kiçik həcmli mətn verilmişdir.

Musiqi fənni üzrə təlim-tədris prosesinin səmərəli təşkili üçün müasir təlimin bütün formaları təqdim olunur: fərdi, cütlərlə, kiçik qruplarla, böyük qruplarla və kollektivlə iş. Bu isə hər bir şagirdin öyrənmə prosesinin intensivliyinə və əməkdaşlıq vərdişlərinin formalaşmasına şərait yaradır. Təlimin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, o cümlədən öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Müəllim öyrədici mühiti *(şərti bölüm: əşyavi, informasiya və sosial-psixoloji mühit)* təşkil etmək üçün şagirdin fərdi xüsusiyyətlərini nəzərə almalı, şəxsiyyətin inkişafına optimal şərait yaratmalıdır. Musiqi dərslərində öyrədici mühiti yaratmaq üçün müəllim keçdiyi musiqi əsərlərinin bəstəkarlarının portretlərini, mövzuya aid təqdimatlar, şəkil, sxem, cədvəl, illüstrasiya və plakatlar, sadə zərb musiqi alətləri, tapmacalar, şeir, mahnıda verilmiş obrazlara aid əşya və maskalar, rəqslərə aid atributlar, cizgi və kino filmlərinin, musiqi əsərlərinin videoçarxları və səsyazmaları və s. istifadə edə bilər.

Bütün dərslər əvvəlki tədris illərində olduğu kimi, 3 mərhələli strukturda verilib:

I. “Motivasiya”

II. “Fəaliyyət”

III. “Ümumiləşdirmə və refleksiya”

Metodik vəsaitdə hər dərsin I mərhələsi *(“Motivasiya”)* şagirdləri fəaliyyətə sövq edən müxtəlif üsullarla verilmişdir: videoçarx və səsyazmalar *(musiqi əsərlərindən, musiqili tamaşa, opera, kino və cizgi filmlərindən parçalar QR kodlarla verilmişdir)*, müxtəlif məzmunlu və janrda şəkillər, lövhədə yazı və epiqraf, şeir və suallar, afişa və s. Bu cür üsullarla müəllim problemli vəziyyəti yaradır və motivasiya mərhələsini tədqiqat sualı ilə bitirir.

II mərhələdə *(“Fəaliyyət”)* təlim məqsədlərinə nail olmaq üçün dərsdə ediləcək fəaliyyət növləri (*mahnıoxuma, rəqsetmə, ritmtutma, dirijorluq, musiqi alətlərində çalma, dinləmə, təqdimat hazırlama, rəsmçəkmə, müstəqil iş, müzakirə, qiymətləndirmə oyun və müxtəlif tapşırıqların yerinə yetirilməsi, cədvəl, kartlar, sxem üzərində və dərsliklə iş)* əks olunmuşdur. *Fəaliyyət* mərhələsində dərsliklə işə və yerinə yetirilən tapşırıqlardan sonra müzakirələrə yer verilir.

III mərhələdə *(“Ümumiləşdirmə və refleksiya”)* qapalı və açıq sualların vasitəsi ilə dərs boyu icra olunan fəaliyyət ümumiləşdirilir, refleksiya keçirilir.

IV sinifdə şagirdlər Ü.Hacıbəyli, S.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, S.Rüstəmov, Ə.Abbasov, H.Nəcəfova, A.Sultanova, T.Quliyev, O.Zülfüqarov, R.Mustafayev, P.Bülbüloğlu, R.Şəfəq, C.Zülfüqarov, C.Abbasov və başqa Azərbaycan bəstəkarlarının əsərlərini öyrənirlər. Bununla yanaşı şagirdlər xarici musiqi əsərləri ilə də *(V.A.Motsart, L.Bethoven, İ.Brams, M.Qlinka, D. Maykapar və s.)* tanış olurlar. Bu tədris ilində də xalq musiqisi *(mahnı və rəqslər)* repertuara daxil edilmişdir. Əvvəlki siniflərdən tanış olan “Qaytağı” və “Yallı” Azərbaycan xalq rəqsləri IV sinfin musiqi repertuarına daxil edilmişdir.

Metodik vəsaitdə musiqi nümunələrinin not mətni verilmişdir (səh. 60-80). Müəllim bu materialdan da resurs kimi istifadə edə bilər.

**Mahnı oxumaq.** Mahnını oxumazdan əvvəl mütləq vokal məşqi (qısa vokal tapşırığı) keçirmək lazımdır. Bu zaman fizioloji hazırlıq aparılır, mahnının ifasından öncə səs aparatı "isindirilir", nəfəs, artikulyasiya, tələffüz, intonasiya və digər vokal vərdişlər formalaşdırılır. Vokal məşqlər taraz səslə, sakit (qışqırmadan) oxunmalıdır. Müəllim vokal tapşırıqları seçərkən onların melodik və ritmik cəhətdən sadə, yaddaqalan olmasına diqqət yetirməlidir. Metodik vəsaitdə nümunə üçün bir neçə vokal məşqləri verilmişdir. I vokal məşqini "mi me ma mo mu" hecaları ilə, II və III vokal məşqlərini "a" hərfi ilə, IV və V vokal məşqlərini "m" hərfi ilə (bağlı ağızla), VI vokal məşqini isə notların adları ilə (*do, re, mi, fa, sol, lya, si* ardıcıllığı ilə) oxumaq lazımdır. Vokal məşqləri zamanı əldə olunan bacarıqlar mahnıların düzgün ifasına kömək edir. Bax MMV III sinif QR

Mahnının düzgün və təmiz oxunması üçün müəllim ilk dərsdən mütəmadi olaraq şagirdlərin diqqətini "Mahnının ifa qaydaları"na (dərslik, səh. 6) yönəltməlidir. Musiqi dərslərində mahnıların müxtəlif tərkibli vokal ansambllarda və xorda ifasına daha çox yer verilir. Şagirdlərin vokal ansambllarda oxu bacarıqlarını formalaşdırmaq üçün dərsliyə "Ansambl" oyunu daxil edilmişdir. IV sinifdə "Mahnının ifa qaydaları"na "Xorla ifa qaydaları"da (dərslik, səh. 6) əlavə edilmişdir: "İfa zamanı müəllimin göstərişlərinə diqqət yetirin", "Mahnını eyni anda oxumağa başlayın və birgə bitirin", "İfa zamanı başqalarından geri qalmayın və tələsməyin".

Xorla oxuma şagirdlərdə diqqəti, müşahidə qabiliyyətini, intizamı tərbiyə edir və onları yaradıcı kollektivdə birləşdirir. İfa zamanı şagirdlərin xorda oxu vərdişlərinə yiyələnməsi, səslərinin qorunması bacarıqlarının formalaşması üçün müəllim məqsədyönlü, sistemli və daimi iş aparır.

Musiqi fənn kurikulumunun tələblərinə uyğun olaraq, IV sinifdə şagirdlər mahnını *ikisəsli ifaetmə* bacarığını inkişaf etdirirlər. İkisəsli oxu vərdişlərinin formalaşması çoxsəsli oxumağa mühüm keçid mərhələsidir. Bu səbəbdən IV sinifdə ikisəsliliyinin müxtəlif növlərinə diqqət yetirilib: *musiqidə əks-səda, ritmik ikisəslilik, kanon və səsaltı sədalar*. Şagirdlərin bu bacarığa yiyələnməsi üçün müəllim sxemlərdən istifadə edir.

Xorla iş prosesini müəyyən ardıcıllıqla təşkil etmək lazımdır. Ən əvvəl xorda oxuyan hər bir şagird başa düşməlidir ki, ikisəslilik iki səsin eyni zamanda səslənənməsidir. Unison üzərində iş ikisəli oxumağa hazırlıq mərhələsi kimi baxılmalıdır. Xorda təmiz intonasiyalı unison səslənmə alınana qədər şagirdlərlə sistematik olaraq vokal məşqlər keçmək lazımdır.

Mahnıların ifası zamanı şagirdlər $^{2}/_{4}$, $^{3}/_{4}$ və $^{4}/_{4}$ musiqi ölçüsünün dirijorluq hərəkətləri yerinə yetirirlər. Şagirdlərin bu bacarığını inkişaf etdirmək üçün dərslikdə verilmiş sxem və şəkillərlə yanaşı, müəllimin əyani dirijorluğu da vacib şərtdir.

**Musiqi əsərini dinləmək.** Musiqi repertuarına asan mənimsənilən və şagirdlərin yaş səviyyəsinə uyğun təntənəli, şən, qəhrəmani, həzin, oynaq xarakterli musiqi nümunələri daxil edilmişdir. Müəllim ilk dərsdən mütəmadi olaraq şagirdlərin diqqətini "Musiqi dinləmə qaydaları"na (dərslik, səh. 6) yönəltməlidir. Musiqi əsərləri tam şəkildə və ya hissə-hissə *(stop-kadr üsulu ilə)* səsləndirilməlidir. Dərsin məqsədlərinə uyğun olaraq şagirdlərə bu musiqi nümunələrinin melodik xüsusiyyətləri, ritm, temp, lad, ölçü, dinamik çalarlar, tembr, registr, janr, məzmun və quruluşu (forması), müşayiətdə musiqi alətlərinin səslənməsi haqqında qısa məlumat verilməlidir. Musiqi nümunələri dinlənildikdən sonra müzakirələrdə şagirdlərin iştirakı təmin edilməlidir.

**Musiqili-ritmik hərəkətlər (ritmika).** Musiqili-ritmik fəaliyyət uşağın əqli, fiziki, mənəvi, estetik keyfiyyətlərinin tərbiyəsinə yönəldilmişdir. Musiqili-ritmik hərəkətlər musiqi qabiliyyətinin inkişafına kömək edir. Onlar, həmçinin musiqiyə emosional münasibətin, ritmik hissiyatın inkişafına da təsir edirlər. Musiqi dərslərində uşaqlar musiqi sədaları altında ritmik hərəkətlər edirlər və bununla bir sıra bacarıqlara yiyələnirlər.

Ritmika uşaqların əhvali-ruhiyyəsinə, həmçinin orqanizmin ümumi vəziyyətinə müsbət təsir göstərir. Musiqili-ritmik fəaliyyətdə uşaq şəxsiyyətinin müsbət keyfiyyətləri inkişaf edir, onda musiqi-estetik hisslər yaranır, dünyagörüşü artır. Musiqili-ritmik hərəkətlərin icrası zamanı musiqiyə sevgi aşılanır, uşağın musiqi zövqü formalaşır. Həmçinin ritmika vasitəsilə hiperaktiv və xüsusi qayğıya ehtiyacı olan uşaqlar da özünü "rahat" hiss etməyi, sərbəst hərəkət etməyi öyrənirlər.

Musiqili-ritmik hərəkətlər şagirdlərin ifa fəaliyytətinin bir növüdür. Musiqili-ritmik hərəkətlərə rəqslər və zərb musiqi alətlərində çalmaq, əl və ayaq hərərkətlərinin yerinə yetirilməsi və s. aiddir. Bu fəaliyyət musiqili və süjetli oyunlara da daxil edilir. Musiqili-ritmik hərəkətlər şən, ritmik musiqi ilə müşayiət olunur. Bu da musiqi materialının daha yaxşı mənimsənilməsinə imkan verir.

**Rəqsləri ifa etmək.** IV sinfin proqramına, əvvəlki siniflərdə olduğu kimi, bəzi rəqslərin təkrar ifası və yeni rəqslərin öyrənilməsi *(Azərbaycan xalq rəqslərinin bəzi elementləri)* daxil edilmişdir. Rəqslər müəyyən ardıcıllıqla öyrədilir. Ən əvvəl rəqsin musiqisi dinlənilməli və xarakteri müzakirə olunmalıdır. Sonra dərslikdə verilən şəkil və sxemlərdəki rəqs elementləri ilə həmin xarakterin uyğunluğu müəyyənləşdirilir. Şagirdlərə rəqs elementlərini (hərəkətlərini) öyrədərkən rəqslərin ifa tərzini çatdırmaq lazımdır. Dərslikdə rəqs elementləri şəkil və sxemlərdə verilmişdir. Bu elementlər I – III siniflərdən şagirdlərə tanış olan elementlərdir. Rəqsin ifası üçün şagirdlərə onun məzmununa uyğun rəqs atributlarının paylanması məqsədyönlüdür.

**Musiqi alətlərində çalmaq.** IV sinfin proqramında bu fəaliyyət sadə zərb musiqi alətləri vasitəsilə yerinə yetirilir. Dərslikdə müvafiq cədvəllər, ritmik şəkillər, sxemlər təqdim olunmuşdur. Musiqi alətində (*nağara, dəf, şaxşax, zəng, metallofon və baraban*) çalmazdan əvvəl, onun quruluşu, həmin alətdə ifa zamanı oturuş qaydası, əllərin alət üzərində düzgün qoyulması yada salınır. Bu tədris ilində şagirdlər müxtəlif tərkibli instrumental ansambllarla da tanış olur, bu kollektivlərin tərkibində olan musiqi alətləri, onların tembri, registri və çalmaq qaydalarına aid tapşırıqlar yerinə yetirirlər. Dərslikdə təqdim olunmuş "Musiqili alətlər" oyununda musiqi alətində ifa təqlidetmə üsulu ilə yerinə yetirilir.

**Təlimi diferensiallaşdırmaq.** Təlimin diferensiallaşdırılmasını aşağıdakı üsullarla həyata keçirmək olar:

- yaradıcılıq səviyyəsinə görə *(yaradıcı olmayan tapşırıqlara aiddir: faktoloji sualların cavablandırılması, müəllimin ifasının təkrar olunması və s. Yaradıcı tapşırıqlar isə qeyristandart nəticələri ehtiva edir: təxəyyülə əsaslanan şəkil çəkmək, rollu oyunda iştirak, sadə musiqi alətlərində çalmaq, rəqs etmək və s.);*
- çətinlik səviyyəsinə görə;
- həcminə görə *(mövzuya uyğun əlavə tapşırıqlar təklif oluna bilər);*
- müstəqillik səviyyəsinə görə *(bütün uşaqlar eyni tapşırığı yerinə yetirir – bəziləri müstəqil şəkildə, digərləri isə müəllimin köməyi və nəzarəti altında);*
- öyrənmə fəaliyyətinin xarakterinə görə;
- şagirdlərə göstərilən köməyin xarakterinə görə *(bütün uşaqlar eyni vaxtda işə başlayır və köməyə ehtiyacı olan şagirdlərə bu şəkildə dəstək göstərilir: köməkçi kartlar, daha asan, lakin oxşar tapşırıqların verilməsi, lövhədə qeydlər və s.).*

Təhsildə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin öyrənmə aktivliyi və bacarıqları fərqlidir. "Ansambl", "İntervalı tapın", "Zarafatyana kanon", "Musiqili ekran", "Musiqili alətlər", "Musiqili bağlama", "Repetisiya", "Musiqili krosvord" və "Musiqili hədiyyə" musiqili-didaktik, mahnı və rəqs-oyunlar vasitəsilə təhsildə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin də musiqi bilik, bacarıq və vərdişləri formalaşır. Həmin oyunların qaydaları metodik vəsaitdə verilmiş dərslərin *gündəlik planlaşdırılması*nda və dərslikdə də göstərilmişdir.

Müəllim dərsin mövzusu ilə bağlı əvvəlki siniflərdə tətbiq olunan musiqili-didaktik oyunları təkrar istifadə edə bilər.

**Oyunlar.** Uşaqlar hər hansı fəaliyyətə, xüsusilə oyuna asanlıqla cəlb olunurlar. Oyun onlar üçün tədris, əmək, ciddi tərbiyəedici formadır. Buna görə də, müəyyən təhsil problemlərini həll etmək üçün uşaqların istəklərindən və ehtiyaclarından istifadə edərək onları oyunlara cəlb etmək məsləhətdir.

Didaktik (öyrədici) oyunlar şərti olaraq 3 növə ayrılır: oyuncaqla (müxtəlif əşya) oynanılan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cütşəkilli kart) oyunları. Dərs zamanı didaktik oyunlardan istifadə uşaqlarda yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir. IV sinifdə Musiqi dərslərində *şəkil üzərində iş, "Musiqili krosvord, "Musiqili hədiyyə"* kimi stolüstü oyunlar keçirilir.

Musiqi dərslərində süjetli və süjetsiz elementar mütəhərrik oyunlardan və əl-ələ tutub dairədə hərəkətlər edib oynanılan, mahnılarla müşayiət olunan oyunlardan istifadə etmək olar. Mütəhərrik oyunlar cəldliyi, çevikliyi, sürəti inkişaf etdirir, fiziki cəhətdən təkmilləşməyə zəmin yaradır (xüsusən oyun yarış formasında keçiriləndə).

Oyunlardan istifadə şagirdlərin intizamlı olmasına çox kömək edir. Hər bir oyunda müəyyən qaydalara riayət olunmalıdır. Oyun zamanı uşaqlar yoldaşlarının istəkləri və maraqlarını nəzərə almağı, təmkinli, daha məsuliyyətli olmağı öyrənirlər. Oyunlar özünənəzarət və özünüqiymətləndirmə bacarıqlarını formalaşdırır. Məsələn, "Repetisiya" oyununda şagirdlər sinif yoldaşlarının çıxışını *xarakterinə uyğun* ***p*** *və* ***f*** *ilə ifa*, *temp və ritminə uyğun müşayiət* meyarlarına görə qiymətləndirirlər.

Oyun həm də uşağın psixoloji vəziyyətini müəyyən etmək və şəxsiyyət kimi inkişafının diaqnostikasını aparmaq üçün bir vasitə, həm də onun inkişafındakı ləngiməni və qüsurları aradan qaldırmaq üçün əla metoddur *(məs., zəif düşünən, utancaq, nitqi zəif inkişaf edən, işi səliqəsiz yerinə yetirən, tənbəl və s. şagirdlər).*

**Qiymətləndirmə.** Məktəbdaxili qiymətləndirmə təhsilin keyfiyyətini yüksəltmək məqsədi daşıyır. Şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək üçün ***diaqnostik qiymətləndirmə***dən istifadə edilir. Müsahibə, söhbət, müşahidə, tapşırıqlar və valideynlərlə əməkdaşlıq üsulları ilə şagirdlərin maraq dairəsi, dünyagörüşü, musiqi qabiliyyətləri haqqında məlumat əldə edilir. Bu da, öz növbəsində, təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır.

Hər bir dərsdə təlim nəticələrinin reallaşması səviyyəsini ***formativ qiymətləndirmə*** vasitəsilə müəyyən etmək olar. Formativ qiymətləndirmə yalnız şagird nailiyyətlərinin dinamikasını ölçən üsul deyil. O bu nailiyyətlərin əsas səbəblərindən biridir. Çünki dərsdə həyata keçirilən formativ qiymətləndirmə zamanı şagird əks-əlaqə nəticəsində öz təlim fəaliyyətinin zəif və güclü tərəflərini öyrənərək onları qiymətləndirir, təlim prosesinin qarşısına yeni məqsədlər qoyur və inkişaf edir.

Formativ qiymətləndirmənin mexanizmləri bunlardır:

- ✔ şagirdin qiymətləndirmə meyarlarını əvvəlcədən bilməsi və öz fəaliyyətində ona yönəlməsi;
- ✔ hər bir şagirdlə əks-əlaqənin yaradılması;
- ✔ şagirdin inkişafa istiqamətləndirilməsi;
- ✔ refleksiya və özünüqiymətləndirmə fəaliyyətlərinin həyata keçirilməsi.

Musiqi dərslərində, başqa dərslərdə olduğu kimi, müəllim şagird nailiyyətinin inkişafını izləməklə təlim strategiyasını qurur. Formativ qiymətləndirmə şagirdi pozitiv ruha kökləməli, daha yaxşı nailiyyətlər əldə etməyə həvəsləndirməlidir. Qiymətləndirmənin bu növünü müxtəlif yollarla keçirmək olar: müşahidə, sorğu, müqayisə və s.

Musiqi dərslərində formativ qiymətləndirməni aşağıdakı meyarlara görə aparmaq olar:

dinləmə və əsərin təhlili, təqdimatların hazırlanması və nümayişi, xor-vokal fəaliyyəti, səlis intonasiya, musiqi alətlərində çalma, mahnı oxu qaydalarına riayət, ritmik hərəkətlərin və rəqs elementlərinin icrası, müxtəlif musiqi fəaliyyətləri zamanı öyrənmə fəallığı, musiqili oyunlarda iştirak, yaradıcı tapşırıqların yerinə yetirilməsi.

Məsələn, formativ qiymətləndirməni "Notları topla" üsulu ilə də aparmaq olar.

Qiymətləndirmənin bu üsulunu tətbiq etmək üçün müəllim üzərində notlar təsvir olunmuş bir neçə kart hazırlayır. Dərs zamanı şagirdlərin nailiyyətlərini həmin kartları təqdim etməklə qiymətləndirir və toplanan kartların sayına əsaslanıb dərsin sonrakı mərhələləri üçün müvafiq strategiya müəyyənləşdirir.

Musiqi dərslərində formativ qiymətləndirməni bu üsullarla da aparmaq olar:

**Mühüm qeydlər.** Müəllim hər şagird üçün qovluq yaradır. Bu qovluq ibtidai sinif müəllimləri üçün daha faydalıdır, çünki növbəti siniflərdə də həmin şagird barədə müşahidələri qeyd etməyə imkan verir.

**Müzakirə.** Müəllim şagirdlərə açıq sual verməklə müzakirə aparır. Müzakirələrin gedişində yaranan sualların köməyi ilə şagirdlər məsələni daha yaxşı qavrayır, səhv məlumatı kənarlaşdıraraq düzgün nəticəyə gəlirlər.

**Çıxış/Giriş vərəqəsi.** Çıxış vərəqələri şagirdin dərsin məzmununu nə dərəcədə başa düşməsini qiymətləndirmək üçün dərsin sonunda müəllimin verdiyi suallara yazılı cavablardır. Bunları cavablandırmaq 5 dəqiqədən çox vaxt aparmamalıdır. Müəllim bu yolla hansı şagirdlərin mövzunu başa düşdüyünü, hansı şagirdlərə əlavə yardım tələb olunduğunu, hansı şagirdlərin isə öyrədilmiş məsələ üzərində daha çox işləməli olduğunu çevik şəkildə müəyyən edə bilər. Çıxış vərəqələrindəki cavabları təhlil etməklə müəllim şagirdlərin ehtiyaclarını növbəti dərsdə qarşılamaq üçün strategiyasını müəyyənləşdirir.

Giriş vərəqələri tam olaraq çıxış vərəqələri kimidir, lakin onlar dərsdən öncə və ya dərsin əvvəlində doldurulur. Şagirdlərə əvvəlki dərsdə verilən ev tapşırığını necə başa düşdüyünü izah etmək və ya onun barəsində rəy bildirmək tapşırılır.

*Özünüqiymətləndirmə* şagirdi öz fəaliyyətini təhlil və müqayisə etməyə, dəyərləndirməyə, nəticə çıxarmağa və daha yaxşı işləməyə sövq edir. Bunun üçün "Repetisiya" oyunundan (dərslik, səh.58), "İşıqfor", "Ovuc və yumruq", "Özünüqiymətləndirmə vərəqi" üsullarından istifadə etmək olar.

**1. "İşıqfor".** Hər bir şagirdə üç rəngdə (qırmızı, sarı və yaşıl) kart paylanır. Əks-əlaqədə şagirdlər bu kartlardan istifadə edirlər: qırmızı rəng (kömək lazımdır), sarı (əmin deyiləm), yaşıl (öhdəsindən gəlirəm).

**2. "Ovuc və yumruq".** Hər bir şagird təlimatlandırılır: ovuc – "tapşırığı yerinə yetirdim", üç barmaq – "tapşırığı qismən yerinə yetirdim", yumruq – "tapşırığın öhdəsindən gələ bilmirəm" deməkdir.

**3. Özünüqiymətləndirmə vərəqi.** Hər bir şagirdə *özünüqiymətləndirmə vərəqi* paylanır. Vərəqin yuxarısında şagird öz adını və soyadını yazır. Vərəqin ortasında *mən* sözü, *onun* ətrafında isə *mahnını ifadəli oxudum, sualı mövzuya uyğun verdim, tapşırıqları yerinə yetirdim, dərs mənə maraqlı idi, mövzunu tam başa düşmədim, yeni bilik aldım* ifadələri yazılır. Şagirdlər vərəqdə mən və dərsdəki fəaliyyətlərinə uyğun ifadələrin arasında oxları çəkirlər.

Bundan əlavə, hər bölmənin sonunda verilmiş *"Özünüzü yoxlayın"* rubrikasında, "Musiqili krosvord" oyununda (IV bölmədən sonra) və "Musiqili hədiyə" oyununda (VII bölmədən sonra) məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına xidmət edən suallara cavab verməklə şagirdlər özünüqiymətləndirməni apara bilərlər.

Dərslikdə hər dərsin sonunda verilən refleksiv sual *(Saz personajının təqdim etdiyi sual)* həm formativ, həm də özünüqiymətləndirməyə aid edilir.

***Kiçik summativ qiymətləndirmə*** hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla

keçirilməlidir. Kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində müəllim tərəfindən sinifdə təhsilalanlara elan olunur. Summativ qiymətləndirmə Musiqi fənni üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır və musiqi fənnini tədris edən müəllim tərəfindən hazırlanır. Nümunə kimi metodik vəsaitdə I bölməyə aid kiçik summativ qiymətləndirmənin tapşlırıqları verilmişdir (səh. 9).

IV sinifdə məktəbdaxili qiymətləndirmənin böyük summativ növü tədris ilinin I və II yarımilinin sonunda aparılır. "Musiqili krosvord" və "Musiqili hədiyyə" oyunlarının tapşırıqlarını böyük summativ qiymətləndirməyə hazırlıq kimi də istifadə etmək olar.

**Valideynlərlə iş.** Şagirdlərin öyrənməsi ilə bağlı məlumatlanmaqda maraqlı olan tərəflərdən biri də valideynlərdir. Övladlarının təlimdə irəliləməsi və geriləməsi haqqında məlumatların daimi olaraq onlara çatdırılması qanunvericilikdə də nəzərdə tutulmuşdur. Həmin məlumatlar e-mail vasitəsilə və ya telefonda mesaj yazmaqla valideynə çatdırıla bilər. Təqdim olunan məlumatlar şagirdin öyrənməsinin həqiqi vəziyyətini əks etdirməli, onu ruhdan salmamalı və yaranan problemin həllində valideynin hansı köməyi edə biləcəyini müəyyənləşdirməlidir. Valideynlərlə işin bir növü onların sinif konsertlərinə dəvət edilməsidir. Tədris ilinin hər iki yarımilində hesabat xarakterli sinif konsertinin təşkilində valideynlərin yaxından iştirak etməsi övladlarının ümumi musiqi tərbiyəsinə böyük dəstəkdir. Həmçinin konsertdə iştirak edərək valideynlər övladlarının tədris prosesindəki nailiyyətləri haqqında məlumatlanırlar. Konsertin təşkilində valideynlərin rəy və təkliflərinin nəzərə alınması vacibdir. Bunun üçün müvafiq sorğu vərəqlərindən istifadə etmək olar.

Valideynlərlə iş prosesində mövzuya uyğun məsləhət saatları da keçirmək olar. Məsləhət saatları qrup və fərdi, planlı və plansız olur. Məsləhət saatları üçün aşağıdakı mövzuları nümunə kimi təqdim edirik:

- ✔ "Evdə musiqi bacarıqlarını necə inkişaf etdirmək olar?";
- ✔ "Valideyn və uşaqların rəqslərin quruluşunda iştirakı";
- ✔ "İbtidai pillədə uşağın musiqi tərbiyəsi".

*QEYD:*

1. Metodik vəsaitdə *Tədris proqramının illik planlaşdırma cədvəli*ndə verilən ixtisarların izahı: **x.r.** – xalq rəqsi, **x.m.** – xalq mahnısı, **A.x.r.** – Azərbaycan xalq rəqsi, **A.x.m.** – Azərbaycan xalq mahnısı deməkdir.
2. Metodik vəsaitdə *Dərslərin gündəlik planlaşdırılması*nda tapşırıq ixtisarla ***T*** hərfi, tədqiqat sualı isə ***T.s.*** hərfləri ilə göstərilmişdir.

# MƏZMUN STANDARTLARI
# IV SİNİF

IV sinfin sonunda şagird:

- xalq musiqisi və professional musiqi haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir;
- musiqi alətləri və musiqi kollektivləri haqqında biliklərə malik olduğunu nümayiş etdirir;
- dinlədiyi musiqi əsərlərini emosional cəhətdən dəyərləndirdiyini nümayiş etdirir;
- xor tərkibində ifa bacarıqları nümayiş etdirir;
- sadə uşaq musiqi alətlərində ifa bacarıqları nümayiş etdirir;
- mahnı ifaçılığı qaydalarını mənimsədiyini nümayiş etdirir və sadə melodiyaların yaradılmasında iştirak edir.

## Məzmun xətləri üzrə əsas və alt standartlar.

**1. Musiqi aləmi**

Şagird:

1.1. Xalq musiqisi və professional musiqi haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.
1.1.1. Professional və xalq musiqisi nümunələrini fərqləndirir.
1.1.2. Bəstəkar və xalq melodiyalarında tanıdığı intervalları müəyyən edir.
1.1.3. Azərbaycan və digər xalqların musiqi nümunələri arasında oxşar cəhətləri müəyyənləşdirir (Yallı-Yalla, Qaytağı-Ləzginka).
1.2. Musiqi alətləri və musiqi kollektivləri haqqında biliklərə malik olduğunu nümayiş etdirir.
1.2.1. Musiqi alətlərini və musiqi kollektivlərini (xor, rəqs, trio, ansambl) sadalayır.
1.2.2. Milli və Avropa musiqi kollektivlərini fərqləndirir.
1.2.3. Musiqi alətləri və musiqi kollektivləri haqqında təqdimatlar edir.

**2. Emosional dəyərləndirmə**

Şagird:

2.1. Dinlədiyi musiqi əsərlərini emosional cəhətdən dəyərləndirə bildiyini nümayiş etdirir.
2.1.1. Mahnının melodiyası ilə mətnin uyğunluğunu aydınlaşdırır.
2.1.2. Musiqi əsərlərinin emosional məzmununa və xarakterinə uyğun bədii və təsviri sənət nümunələrini müəyyən edir.

**3. Musiqi fəaliyyəti**

Şagird:

3.1. Xor tərkibində ifa bacarıqlarını nümayiş etdirir.
3.1.1. "Mahnı-marş", "Mahnı-rəqs" tipli musiqi nümunələrinin 2 səsli ifasında iştirak edir.
3.1.2. Xor daxilində kollektiv ifa qaydalarını mənimsədiyini nümayiş etdirir.
3.2. Sadə uşaq musiqi alətlərində ifa bacarıqlarını nümayiş etdirir.
3.2.1. 2 və 3 hissəli və rondo quruluşlu mahnıları temp, ritm dəyişikliyinə uyğun müşayiət edir.
3.2.2. Mahnılardan bir parçanı ***p*** və ***f*** nüansları ilə ardıcıl olaraq ifa edir (oxuyur).
3.3. Mahnı ifaçılığı qaydalarını mənimsədiyini nümayiş etdirir və sadə melodiyaların yaradılmasında iştirak edir.
3.3.1. Ladlarına (major və minor) uyğun olaraq mahnıları 2 səsli ifa edir.
3.3.2. Verilən melodik parçanı müxtəlif xarakterdə ifa edir.
3.3.3. Verilmiş musiqi parçalarından 2/4, 3/4, 4/4 ölçüləri müəyyən edir.

# MƏZMUN STANDARTLARI VƏ FƏN

| № | Bölmə | Mövzunun №-si və adı | 1.1. | 1.2. | 2.1. |
|---|---|---|---|---|---|
| 1 | I. Xalq musiqisi və professional musiqi | 1. "Vətənimin seyrinə çağırıram elləri" | 1.1.1. | | |
| 2 | | 2. Bəstəkarların əsərlərində xalq musiqisi | 1.1.1. | | |
| 3 | | 3. Musiqili körpülər | 1.1.1. | | |
| 4 | | Kiçik summativ qiymətləndirmə | 1.1.1., 3.1.2., 3.2.1., 3.3.2. | | |
| 5 | II. Musiqi kollektivləri | 4. İnstrumental ansambllar | | 1.2.1 | |
| 6 | | 5. Rəqs ansamblları | | 1.2.1 | |
| 7 | | 6. Vokal kollektivləri | | 1.2.1 | |
| 8 | | Kiçik summativ qiymətləndirmə | 1.2.1., 3.1.1., 3.1.2. | | |
| 9 | III. Musiqi əsərlərinin melodiyaları | 7. Mahnının melodiyası və mətni | | | 2.1.1. |
| 10 | | 8. Melodiyada intervallar | 1.1.2. | | |
| 11 | | 9. Musiqi ifadə vasitələri | 1.1.3. | | 2.1.1. |
| 12 | | Kiçik summativ qiymətləndirmə | | | |
| 13 | IV. İkisəsli musiqi | 10. Musiqidə əks-səda | 1.1.2. | | |
| 14 | | 11. Ritmik ikisəslilik | | | |
| 15 | | 12. Kanon | | | |
| 16 | | 13. Səsaltı sədalar | | | |
| 17 | | Kiçik summativ qiymətləndirmə | 1.1.2., 3.1.1., 3.2.1., 3.2.2., 3.3.1. | | |
| 18 | | Böyük summativ qiymətləndirmə | 1.1.1., 1.1.2., 1.1.3., 1.2.1., 2.1.1., 3.1.1., | | |
| 19 | V. Musiqi və incəsənətin başqa növləri | 14. Musiqi və ədəbiyyat | | | 2.1.2. |
| 20 | | 15. Musiqili ekran | | | 2.1.2. |
| 21 | | 16. Musiqili tamaşa | | 1.2.2 | 2.1.2. |
| 22 | | 17. Daşları canlandıran sənət və musiqi | | 1.2.3. | 2.1.2. |
| 23 | | 18. Novruz əyləncələri | | | 2.1.2. |
| 24 | | Kiçik summativ qiymətləndirmə | 1.2.2., 1.2.3., 2.1.2., 3.2.1. | | |
| 25 | VI. Musiqili şəkillər | 19. Musiqidə portret | | | 2.1.2. |
| 26 | | 20. Musiqili natürmort | | | 2.1.2. |
| 27 | | 21. Musiqidə təbiət lövhələri | | 1.2.2. | 2.1.2. |
| 28 | | 22. Sərgidə | | | 2.1.2. |
| 29 | | Kiçik summativ qiymətləndirmə | 1.2.2., 2.1.2., 3.1.1., 3.3.3. | | |
| 30 | VII. Konsert zalında | 23. Canım mənim, məmləkətim!" | 1.1.3. | 1.2.3. | |
| 31 | | 24. Afişa | | 1.2.1. | |
| 32 | | 25. Konsertə hazırlıq | | | |
| 33 | | 26. Bayram konserti | | | |
| 34 | | Kiçik summativ konserti | 1.1.3., 1.2.1., 1.2.3., | | |
| 35 | | Böyük summativ qiymətləndirmə | 1.1.3., 1.2.1., 1.2.2., 1.2.3.,2.1.2., | | |

# LƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| 3.1. | 3.2. | 3.3. | Azərb.d. | H.b. | F.t. | T.s. | Riy. |
|---|---|---|---|---|---|---|---|
| 3.1.2. | | 3.3.2. | 2.2.1. | | 4.1.1. | | |
| 3.1.2. | | | 2.2.1. | | | | |
| 3.1.2. | 3.2.1. | | 2.2.1. | | 4.1.1. | | |
| | | | | | | | |
| 3.1.2. | | | 2.2.1. | | | | |
| 3.1.1. | | | | | 2.1.1. | | |
| 3.1.2. | | | 2.2.1. | | | | |
| | | | | | | | |
| 3.1.2. | | | | | | 3.1.1 | |
| | | 3.3.1. | | | | | 4.2.1 |
| | | 3.3.3. | | | | 3.1.1. | 4.2.1 |
| 1.1.2., 1.1.3., 2.1.1., 3.1.2., 3.3.1., 3.3.3. | | | | | | | |
| | | 3.3.1. | 1.2.2. | | | | |
| | 3.2.1. | | 1.2.2. | | | | |
| 3.1.1. | 3.2.2. | | 1.2.2. | | | | |
| 3.1.1. | | | 1.2.2. | | | | |
| | | | | | | | |
| 3.1.2., 3.2.1., 3.2.2., 3.3.1., 3.3.2., 3.3.3. | | | | | | | |
| | 3.2.1. | | 2.1.1. | | | | |
| | | | | 3.2.1. | | | |
| | | | | 3.2.1. | | | |
| | 3.2.1. | | 1.2.1. | 3.2.1. | | | |
| | | | | | | 3.1.1. | |
| | | | | | | | |
| 3.1.1. | | | | | | 3.1.1. | |
| 3.1.1. | | | | | | 3.1.1. | |
| | | 3.3.3. | | | | 3.1.1. | 4.2.1. |
| | | 3.3.3. | | | | 3.1.1. | 4.2.1. |
| | | | | | | | |
| 3.1.2. | | | | 1.1.1. | | | |
| | 3.2.1. | | 2.2.1. | | | | |
| | 3.2.1., 3.2.2. | | 2.2.1. | | | | |
| | 3.2.2. | 3.3.2. | 1.2.4. | | | | |
| 3.1.2., 3.2.1., 3.2.2., 3.3.2 | | | | | | | |
| 3.1.1., 3.1.2., 3.2.1., 3.2.2., 3.3.2, 3.3.3. | | | | | | | |

# TƏDRİS PROQRAMININ İLLİK PLANLAŞDIRMA CƏDVƏLİ

| № | Standart | Bölmə | Mövzu | Saat | Musiqi repertuarı |
|---|---|---|---|---|---|
| 1 | 1.1.1.<br>3.1.2.<br>3.3.2. | I.<br>Xalq musiqisi və professional musiqi | 1. "Vətənimin seyrinə çağırıram elləri" | 1 | 1. Azərbaycan Respublikasının Dövlət Himni. Ü.Hacıbəyli, Ə.Cavad.<br>2. "Azərbaycana gəlsin". T.Quliyev, S.Rüstəm.<br>3. "Azərbaycan" A.x.r. |
| 2 | 1.1.1.<br>3.1.2. | | 2. Bəstəkarların əsərlərində xalq musiqisi | 1 | 1. "Bağçada gül" A.x.m.<br>2. "8 uşaq pyesi" məcmuəsindən 6, 7, 8 nömrəli pyeslər. E.Nəzirova. |
| 3 | 1.1.1.<br>3.1.2.<br>3.2.1. | | 3. Musiqili körpülər | 1 | 1. "Qaraca qız" baletindən "Qaraca qızla Ağcanın rəqsi". Ə Abbasov.<br>2. "Ruslan və Lyudmila" operasından "Qızların xoru". M.Qlinka.<br>3. "Qalanın dibində bir quş olaydım". A.x.m. |
| 4 | Kiçik summativ qiymətləndirmə | | | | |
| 5 | 1.2.1.<br>3.1.2. | II. Musiqi kollektivləri | 4. İnstrumental ansambllar | 1 | 1. "5 nömrəli macar rəqsi". İ.Brams.<br>2. "Qoy skripkaları kökləsinlər". Çex x.m. |
| 6 | 1.2.1.<br>3.1.1. | | 5. Rəqs ansamblları | 1 | 1. "Koroğlu" operasından "Cəngi". Ü.Hacıbəyli.<br>2. "El yallı". A.x.m. |
| 7 | 1.2.1.<br>3.1.2. | | 6.Vokal kollektivləri | 1 | 1. "Zəfər marşı". R.Məmmədov, C.Qurbanov.<br>2. "Qarabağ". R.Şəfəq, Ə.Quluzadə. |
| 8 | Kiçik summativ qiymətləndirmə | | | | |
| 9 | 2.1.1.<br>3.1.2. | III.<br>Musiqi əsərlərinin melodiyaları | 7. Mahnının melodiyası və mətni | 1 | 1. "Sevil" operasından "Laylay". F.Əmirov.<br>2. "Fəsillər". C.Abbasov, R.Yusifoğlu. |
| 10 | 1.1.2.<br>3.3.1. | | 8. Melodiyada intervallar | 1 | 1. "Əməyi sevirik biz!" R.Şəfəq, R.Əhmədzadə. |
| 11 | 1.1.3.<br>2.1.1.<br>3.3.3. | | 9. Musiqi ifadə vasitələri | 1 | 1. "Dağlar". S.Rüstəmov, M.Seyidzadə.<br>2. "Qaytağı". A.x.r.<br>3. "Ləzgihəngi". Ləzgi x.r. |
| 12 | Kiçik summativ qiymətləndirmə | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 13 | 1.1.2.<br>3.3.1. | IV.<br>İkisəsli musiqi | 10. Musiqidə əks-səda | 1 | 1. "Əks-səda". H.Nəcəfova, X.Əlibəyli.<br>2. "Dağlarda əks-səda" pyesi. S.Maykapar. |
| 14 | 3.2.1. | | 11. Ritmik ikisəslilik | 1 | 1. "Azərbaycana gəlsin". T.Quliyev, S.Rüstəm..<br>2. "Yolka nəğməsi". S.Hacıbəyov, M.Seyidzadə. |
| 15 | 3.1.1.<br>3.2.2. | | 12. Kanon | 1 | 1. "Yolka nəğməsi". S.Hacıbəyov, M.Seyidzadə. |
| 16 | 3.1.1. | | 13. Səsaltı sədalar | 1 | 1. "Qəhrəmanlar". R.Mustafayev, T.Mütəllibov.<br>2. "Yeddi gözəl" baletindən "Hind gözəlinin rəqsi". Q.Qarayev. |
| 17 | Kiçik summativ qiymətləndirmə | | | | |
| 18 | Böyük summativ qiymətləndirmə | | | | |
| 19 | 2.1.2.<br>3.2.1. | V.<br>Musiqi və incəsənətin başqa növləri | 14. Musiqi və ədəbiyyat | 1 | 1. "Dilarə". O.Zülfüqarov, T.Mütəllibov.<br>2. "Hekayə" pyesi. Q.Qarayev. |
| 20 | 2.1.2. | | 15. Musiqili ekran | 1 | 1. "Bəxtiyar" kinofilmindən "Dostluq mahnısı" T.Quliyev, Ə.Əlibəyli.<br>2. "Qala" filmindən bir parça. C.Zülfüqarov. |
| 21 | 1.2.2.<br>2.1.2. | | 16. Musiqili tamaşa | 1 | 1. "Şəngülüm, Şüngülüm, Məngülüm" musiqili tamaşasından bir parça. O.Zülfüqarov, R.Heydər.<br>2. "Balaca dirijor". A.Sultanova, T.Elçin. |
| 22 | 1.2.3.<br>2.1.2.<br>3.2.1. | | 17. Daşları canlandıran sənət və musiqi | 1 | 1. "Yaşa, mənim xalqım!" R.Məmmədov, Z.Ağayeva.<br>2. "Türksayağı rondo". V.A.Motsart. |
| 23 | 2.1.2. | | 18. Novruz əyləncələri | 1 | 1. "Xoş gəlmisən, Novruzum!" Səadət Fərziyeva. |
| 24 | Kiçik summativ qiymətləndirmə | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 25 | 2.1.2.<br>3.1.1. | VI. Musiqili şəkillər | 19. Musiqidə portret | 1 | 1. "İgid əsgər, möhkəm dayan!" Şahin Musaoğlu.<br>2. "Patetik sonata"nın I hissəsi. LBethoven. |
| 26 | 2.1.2.<br>3.1.1. | | 20. Musiqili natürmort | 1 | 1. "2 nömrəli ekspromt". F. Əmirov.<br>2. "Qızılgül". H.Nəbioğlu, A.Şaiq. |
| 27 | 1.2.2.<br>2.1.2.<br>3.3.3. | | 21. Musiqidə təbiət lövhələri | 1 | 1. "Şən Azərbaycan". P.Bülbüloğlu, M. Günər.<br>2. 2 nömrəli konsertdən ("Yay") "Tufan". A.Vivaldi. |
| 28 | 2.1.2.<br>3.3.3. | | 22. Sərgidə | 1 | 1. "İgidlər". A.x.r.<br>2. "Şəkillər haqqında mahnı". Q.Qladkov-Yugin, A.Kuşnerindir |
| 29 | Kiçik summativ qiymətləndirmə | | | | |
| 30 | 1.1.3.<br>1.2.3.<br>3.1.2. | VII. Konsert zalında | 23. "Canım mənim, məmləkətim!" | 1 | 1. "Yallı". A.x.r.<br>2. "Deliloy, deliloy dastanı". Türk x.r.<br>3. "Azərbaycan". H.Abdullayev, İ.Dadaşov. |
| 31 | 1.2.1.<br>3.2.1. | | 24. Afişa | 1 | 1." Azərbaycan". H.Abdullayev, İ.Dadaşov. |
| 32 | 3.2.1.<br>3.2.2. | | 25. Konsertə hazırlıq | 1 | Afişaya daxil olunan musiqi əsərləri |
| 33 | 3.2.2.<br>3.3.2. | | 26. Bayram konserti | 1 | Afişaya daxil olunan musiqi əsərləri |
| 34 | Kiçik summativ konserti | | | | |
| 35 | Böyük summativ qiymətləndirmə | | | | |

# DƏRSLƏRİN GÜNDƏLİK PLANLAŞDIRILMASI

## I BÖLMƏ

## XALQ MUSİQİSİ VƏ PROFESSİONAL MUSİQİ

Dərslik komplektində təklif olunmuş I bölməsinin vəzifəsi – əvvəlki illərdə mənimsənilən müəyyən bilik, musiqi bacarıqlarının ümumiləşdirilməsi və yeni səviyyəyə qalxmasıdır. I bölmə 3 dərsi əhatə edir. Bu bölmədə şagirdlərin mövzunun daha dərindən mənimsəməsi üçün fənn üzrə dövlət standartlarına uyğun olaraq xalq musiqisi və professional misiqiyə aid olan musiqi nümunələrinə və xorla oxu qaydalarına əsas yer verilir. Bunun üçün dərslik komplektində Xorla oxu qaydaları, mövzulara aid mətnlər və lüğət verilmişdir. Tədris prosesində şagirdlər opera və balet janrları ilə tanış olurlar. Belə ki, şagirdlər xalq musiqisi və professional musiqiyə aid nümunələri müəyyənləşdirir, müqayisə edirlər. Bu bölmədə II və III siniflərdən onlara tanış olan Venn diaqramı, cədvəl və kartlarla iş, ritmik müşayiət və başqa metodlardan istifadə olinur.

"Musiqi incəsənətin bir növüdür. İnsanın təəssüratları, hiss və fikirləri müxtəlif melodiyalarda ifadə edilir. Musiqi aləmi xalq musiqisi və professional musiqiyə bölünür" fikrini bölmənin əvvəlində şagirdlərə Do notu personajı təqdim edir və bununla I bölmədə nədən danışılacağı barədə qısa məlumat verir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim I bölmədə reallaşan standartlara əsasən (1.1.1., 3.1.2., 3.2.1., 3.3.2.) qapalı və açıq tapşırıqları hazırlayır.

## 1 "VƏTƏNİMİN SEYRİNƏ ÇAĞIRIRAM ELLƏRİ"

**Standart:** 1.1.1., 3.1.2., 3.3.2.

**Məqsəd:** 1. Azərbaycan xalq musiqisi və professional musiqinin nümunələrini tanıyır.
2. Xorla oxu qaydalarına riayət etməklə "Azərbaycana gəlsin" mahnısını oxuyur.
3."Azərbaycan" xalq rəqsini xarakterinə uyğun ifa edir.

**İnteqrasiya:** Azərb.d.: 2.2.1., F.t.: 4.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, uyğunlaşdırma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), Azərbaycan Respublikasının Dövlət Himninin, "Azərbaycana gəlsin" mahnısının və "Azərbaycan" xalq rəqsinin videoçarxları və ya səsyazmaları, iş vərəqləri

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim yay tətilində şagirdlərin dinlədikləri və ifa etdikləri musiqi əsərləri barədə söhbət aparır. "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır.

Müəllim musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavada məxsus olan Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirir və ya videoçarxı nümayiş etdirir. Şağirdlər himni ayaq üstə ifa edirlər. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Azərbaycan Respublikasının Dövlət Himni nəyi təcəssüm edir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Vətən mövzusunu xalq musiqisi və professional musiqidə necə ifadə etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim xalq musiqisi və professional musiqi haqqında ümumi məlumat verir (dərslik səh. 8). Vokal məşqi keçirilir və musiqisi Tofiq Quliyevə, sözləri Süleyman Rüstəmə məxsus olan "Azərbaycana gəlsin" mahnısı öyrədilir.

***T1*** *(kollektiv iş)*: *Müəllimin göstərişlərinə diqqət edərək "Azərbaycana gəlsin" mahnısını oxuyun.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim ""Azərbaycan" xalq rəqsi"ni səsləndirir, şagirdlərin diqqətini "Rəqs elementləri" sxeminə yönəldir və həmin elementləri öyrədir.

***T2*** *(kollektiv iş)*: *""Azərbaycan" xalq rəqsi"ni şən əhval-ruhiyyə ilə ifa edin.*

Sonra ""Azərbaycan" xalq rəqsi" təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Sinif kiçik qruplara bölünür və hər qrupa üzərində *"Xalq musiqisi"*, *"Professional musiqi"* sözləri və musiqi nümunələrinin *(Azərbaycan Respublikasının Dövlət Himni, "Azərbaycana gəlsin" mahnısı, "Azərbaycan" rəqsi)* adları yazılmış iş vərəqi paylanılır (dərslik səh. 9).

***T3*** *(kiçik qruplarla iş)*: *Verilmiş musiqi nümunələrini müvafiq dairə ilə birləşdirin.*

Qrupların yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə sizin üçün maraqlı olan nələr idi?*

# 2 BƏSTƏKARLARIN ƏSƏRLƏRİNDƏ XALQ MUSİQİSİ

**Standart:** 1.1.1., 3.1.2.

**Məqsəd:** 1. Azərbaycan xalq musiqisi və professional musiqi nümunələrini fərqləndirir.
2. Xorla oxu qaydalarına riayət etməklə "Bağçada gül" mahnısını ifa edir.

**İnteqrasiya:** Azerb.d.: 2.2.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, Venn diaqramı, kartla iş, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "8 uşaq pyesi" məcmuəsindən 6, 7, 8 nömrəli pyeslər və "Bağçada gül" mahnısının videoçarxları və ya səsyazmaları, iş vərəqləri, kart, milli və müxtəlif peşələrə aid xüsusi geyimlərin təsviri olan şəkillər

## Dərsin gedişi

***Motivasiya***

Müəllim lövhədən bir neçə milli və müxtəlif peşələrə aid xüsusi geyimlərin təsviri olan şəkilləri asır və sinfə suallarla müraciət edir:

– Şəkillərdəki geyimlər nə ilə fərqlənir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Professional musiqini xalq musiqisindən necə fərqləndirmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

***Fəaliyyət***

Müəllim Azərbaycan xalq musiqi nümunələrinin qorunub saxlanması haqqında ümumi məlumat verir (dərslik səh. 10). "Mahnının ifa qaydaları"nı (dərslik səh. 6) şagirdlərin yadına salır. Vokal məşqi keçirilir və "Bağçada gül" Azərbaycan xalq mahnısını öyrədilir.

***T1*** *(kollektiv iş): "Bağçada gül" mahnısını ifa edərək eyni anda oxumağa başlayın və birgə bitirin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim şagirdlərin diqqətini dərslikdəki mətnə yönəldir (dərslik səh. 11). Sonra "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır və musiqisi Elmira Nəzirovaya məxsus olan "8 uşaq pyesi" məcmuəsindən 6, 7, 8 nömrəli pyeslər səsləndirilir. Müəllim şagirdlərə üzərində *"Bağçada gül" Azərbaycan xalq mahnısının melodiyasından __ nömrəli pyesdə istifadə olunmuşdur.* cümləsi yazılmış kartlar paylayır.

***T2*** *(fərdi iş): Xanada pyesin nömrəsini yazmaqla cümləni tamamlayın.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Sinif qruplara bölünür və hər qrupa üzərində Venn diaqramı olan iş vərəqi paylanılır.

***T3*** *(kiçik qruplarla iş): Musiqi nümunələrini müqayisə edin.*




Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

***Ümumiləşdirmə və refleksiya***

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Xalq musiqisi ilə professional musiqini fərqləndirmək üçün dərsdə hansı işləri gördünüz?*

# 3 MUSİQİLİ KÖRPÜLƏR

**Standart:** 1.1.1., 3.1.2., 3.2.1.

**Məqsəd:** 1.Opera və balet musiqisi ilə xalq melodiyalarını fərqləndirir.
2. Xorla oxu qaydalarına riayət etməklə "Qalanın dibində bir quş olaydım" mahnısını oxuyur.
3. Dinlədiyi musiqi nümunələrinə ritmik müşayiət edir.

**İnteqrasiya:** Azərb.d.: 2.2.1., F.t.: 4.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, ritmika, cədvəllə iş, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları", "Xorla oxu qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "8 uşaq pyesi" məcmuəsindən 8 nömrəli pyesin, "Qaraca qız" baletindən "Qaraca qızla Ağcanın rəqsi", "Qalanın dibində bir quş olaydım" Azərbacan xalq mahnısı və "Ruslan və Lyudmila" operasından "Qızların xoru"nun videoçarxları və ya səsyazmaları, iş vərəqləri

## Dərsin gedişi

***Motivasiya***

Müəllim bəstəkar Elmira Nəzirovaya məxsus olan "8 uşaq pyesi" məcmuəsindən 8 nömrəli pyesi səsləndirir. Sonra şagirdlərə sualla müraciət olunur:

– Pyesdə hansı xalq mahnısından istifadə olunub? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Bəstəkarlar öz əsərlərində niyə xalq musiqisindən istifadə edirlər? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

***Fəaliyyət***

Müəllim bəstəkar Əşrəf Abbasova məxsus olan "Qaraca qız" baleti haqqında məlumat verir və balet sözünün mənasını açıqlayır (dərslik səh. 12). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Videoçarxda həmin baletdən "Qaraca qızla Ağcanın rəqsi" səhnəsi nümayiş olunur.

***T1*** *(kollektiv və fərdi iş): "Qaraca qızla Ağcanın rəqsi"nin ritminə uyğun əl çalın.*

"Qaraca qızla Ağcanın rəqsi"nə aid videoçarx təkrar nümayiş olunur. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və "Qalanın dibində bir quş olaydım" Azərbaycan xalq mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini "Xorla oxu qaydaları"na (dərslik səh. 6) yönəldir.

***T2*** *(kollektiv iş): Başqalarından geri qalmadan və tələsmədən "Qalanın dibində bir quş olaydım" mahnısını xorla oxuyun.*

“Qalanın dibində bir quş olaydım” mahnısı təkrar ifa olunur. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim bəstəkar Mixail Qlinkaya məxsus olan “Ruslan və Lyudmila” operası haqqında məlumat verir və opera sözünün mənasını açıqlayır (dərslik səh. 13). Videoçarxda həmin operadan “Qızların xoru” səhnəsi nümayiş olunur. Sonra sinif qruplara bölünür və hər qrupa üzərində cədvəl olan iş vərəqi paylanılır.

***T3*** *(kiçik qruplarla iş): Cədvəli tamamlayın.*

| Musiqi nümunəsinin adı | Professional musiqi (“+” və ya “-”) | Xalq musiqisi (“+” və ya “-”) |
|---|---|---|
| “Qaraca qızla Ağcanın rəqsi” | + | – |
| “Qalanın dibində bir quş olaydım” | – | + |
| “Qızların xoru” | + | – |

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Xalq musiqisi və professional musiqi haqqında yeni nə öyrəndiniz?*

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ AİD TAPŞIRIQLAR

## (I BÖLMƏ)

**1.** Verilmiş musiqi nümunələrindən hansı xalq musiqisinə aiddir?

a) "Qaraca qızla Ağcanın rəqsi" b) "Azərbaycana gəlsin" c) "Bağçada gül"

**2.** Bəstəkarlar tərəfindən yaranan musiqi necə adlanır?

a) xalq musiqisi
b) professional musiqi
c) xalq musiqisi və professional musiqi

**3.** Xalq musiqisi ilə professional musiqinin fərqi nədədir?

____________________________________________________

**4.** Hansı qaydalara aiddir: "İfa zamanı başqalarından geri qalmayın və tələsməyin".

a) "Mahnının ifa qaydaları" b) "Xorla oxu qaydaları" c) "Musiqi əsərinin dinləmə qaydaları"

**5.** "Azərbaycana gəlsin" mahnısını oxuyarkən hansı qaydalara riayət olunmalıdır?

a) "Mahnının ifa qaydaları" b) "Xorla oxu qaydaları" c) "Musiqi əsərinin dinləmə qaydaları"

**6.** Hansı "Xorla oxu qaydaları"na aiddir?

a) Əvvəldən axıra qədər diqqətlə dinləyin.
b) Bir mahnını eyni anda oxumağa başlayın və birgə bitirin.
c) Dinləyərkən sakitliyə riayət edin.

**7.** ""Azərbaycan" xalq rəqsi" xarakterinə görə hansı musiqi nümunəsinə bənzəyir?

a)"Qaraca qızla Ağcanın rəqsi"
b) "Qızların xoru"
c) Azərbaycan Respublikasının Dövlət Himni

**8.** "Qalanın dibində bir quş olaydım" Azərbaycan xalq mahnısını hansı xarakterdə ifa etmək lazımdır?

a) həzin b) şən c) ciddi

**9.** E.Nəzirovanın "8 uşaq pyesi" məcmuəsindən 8 nömrəli pyesi ritmik müşayiətinə görə hansı musiqi nümunəsinin ritmik müşayiətindən fərqlənir?

a) "Azərbaycan" Azərbaycan xalq rəqsi
b) Azərbaycan Respublikasının Dövlət Himni
c) "Bağçada gül"

**10.** "Azərbaycana gəlsin" mahnısı ritmik müşayiətinə görə hansı musiqi nümunəsinin ritmik müşayiəti ilə eynidir?

a) "Qalanın dibində bir quş olaydım" b) "Qaraca qızla Ağcanın rəqsi" c) "Bağçada gül"

# II BÖLMƏ

## MUSİQİ KOLLEKTİVLƏRİ

II bölmə 3 dərsi əhatə edir. Onun musiqi repertuarına müxtəlif janrda olan musiqi nümunələri daxil edilmişdir.

Bu bölmədə şagirdlərin musiqi alətləri və kollektivləri tanımaq, sadalamaq və fərqləndirmək bacarıqlarının inkişafı əsas götürülmüşdür. Bunun üçün fənn üzrə dövlət standartlarını reallaşdırmaq məqsədilə tapşırıqlar müxtəlif üsullarla verilmişdir: kollektiv və müxtəlif tərkibli ansambllarda mahnı oxumaq, rəqsetmək, zərb musiqi alətlərində çalmaq, musiqi alətlərinin ifa tərzini təqlid etmək, "Ansambl" oyunu və s.

"Bəzən musiqi kollektivini musiqi ansamblı və ya musiqi dəstəsi də adlandırırlar. İnstrumental, rəqs və vokal musiqi kollektivləri mövcuddur. Həmin kollektivləri birləşdirən onların musiqi əsərlərinin ifası üzərində bir yerdə işləməsidir" fikrini bölmənin əvvəlində şagirdlərə ***Re notu*** personajı təqdim edir və bununla II bölmədə nədən danışılacağı barədə qısa məlumat verir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim II bölmədə reallaşan standartlara əsasən (1.2.1., 3.1.1., 3.1.2.) qapalı və açıq tapşırıqlar hazırlayır.

## 4 İNSTRUMENTAL ANSAMBLLAR

**Standart:** 1.2.1., 3.1.2.

**Məqsəd:** 1.2.1. Musiqi alətləri və müxtəlif instrumental ansamblları sadalayır.
3.1.2. İnstrumental ansamblın müşayiəti ilə "Qoy skripkaları köklənsinlər" mahnısını oxuyur.

**İnteqrasiya:** Azərb. d.: 2.2.1.

**İş forması:** kollektiv, kiçik quplarla

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, təqlidetmə, musiqi alətlərində çalma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "5 nömrəli macar rəqsi" musiqi nümunəsinin və "Qoy skripkaları köklənsinlər" mahnısının videoçarxları və ya səsyazmaları, "Bremen musiqiçiləri" musiqili tamaşasından bir parçasının videoçarxı, zərb musiqi alətləri (nağara, baraban, şaxşax, metallofon və s.), plakat, kartlar *(skripka, şeypur və fleyta)*

### Dərsin gedişi

***Motivasiya***

Müəllim lövhədən "İnstrumental ansambl musiqi alətlərində ifa edən çalğıçı dəstəsidir" yazılmış plakat asır və "Bremen musiqiçiləri" musiqili tamaşasından bir parça nümayiş etdirir. Sonra müəllim sinfə sualla müraciət edir:

– İzlədiyiniz videoçarxda musiqiçilər hansı alətlərdə çalırdılar? *(Şagirdlərin cavabları dinlənilir.)*
**T.s.:** *İnstrumental ansamblları necə təşkil etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

***Fəaliyyət***

Müəllim instrumental ansambllar haqqında məlumat verir (dərslik səh. 16). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) yada salınır. Müəllim musiqisi İohannes Bramsa məxsus olan "5 nömrəli macar rəqsi"ni səsləndirir. Sinif 3 qrupa bölünür. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim hər qrupa zərb musiqi alətlərinin bir növünü (nağara, baraban, şaxşax, metallofon və s.) paylayır.

***T1*** *(kiçik qruplarla iş): "5 nömrəli macar rəqsi"ni ritminə uyğun ansambl şəklində zərb musiqi alətləri ilə müşayiət edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və "Qoy skripkaları kökləsinlər" çex xalq mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfə *skipka, şeypur* və *fleyta* musiqi alətlərinin adları yazılmış kartları paylayır. Sonra şagirdlər musiqi alətlərinə görə 3 instrumental ansambl təşkil edirlər.

***T2*** *(kiçik qruplarla iş): "Qoy skripkaları kökləsinlər" mahnısını ifa edərkən müxtəlif ansambllarda çalmağı hərəkətlərlə təsvir edin.*

"Qoy skripkaları kökləsinlər" mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

***Ümumiləşdirmə və refleksiya***

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Nəfəs, zərb və simli alətlər ansambllarına daha harada rast gəlmişsiniz?

# 5 RƏQS MUSİQİSİ

**Standart:** 1.2.1., 3.1.1.

**Məqsəd:** 1.Kollektivlə ifa olunan rəqsləri tanıyır.
2. "El yallı" mahnısını oxuyur və rəqs edir.

**İnteqrasiya:** F.t.: 2.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, müstəqil iş, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Koroğlu" operasından "Cəngi" musiqi nümunəsinin və "El yallı" mahnısının videoçarxları və ya səsyazmaları, Rəqs elementləri sxemi (dərslik səh. 19), iş vərəqləri

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim musiqisi Üzeyir Hacıbəyliyə məxsus olan "Koroğlu" operasından "Cəngi"ni səsləndirir və şagirdlər onun sədaları altında rəqs edirlər. Sonra sinfə sualla müraciət edir:

– Rəqs edərkən nə üçün siz müxtəlif hərəkətlər etdiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Rəqsləri kollektiv şəkildə necə ifa etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərin diqqətini rəqs musiqisi və "Cəngi" Azərbaycan xalq rəqsi haqqında məlumat verir (dərslik səh. 18). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) yada salınır. Müəllim musiqisi Üzeyir Hacıbəyliyə məxsus olan "Koroğlu" operasından "Cəngi" musiqi nümunəsini təkrar səsləndirir.

***T1*** *(fərdi iş): "Cəngi" rəqsinin ifa qaydasına uyğun şəkli seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Sinif qruplara bölünür. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim hər qrupa üzərində Kollektiv rəqsetmə qaydaları ifadəsi yazılmış iş vərəqləri paylayır.

***T2*** *(kiçik qruplarla iş): Kollektiv rəqs etmək üçün 3 qayda tərtib edin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim şagirdlərin diqqətini yallılar haqqında mətnə yönəldir (dərslik səh. 19). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır, vokal məşqi keçirilir və "El yallı" Azərbaycan xalq mahnısı öyrədilir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini *Kollektiv rəqsetmə qaydaları* iş vərəqlərinə və *Rəqs elementləri sxemin*ə (dərslik səh. 19) yönəldir.

***T3*** *(kollektiv iş): "El yallı" mahnısını oxuyarkən kollektiv şəkildə rəqs edin.*

"El yallı" mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Rəqslərin kollektiv ifasında sizə nə kömək etdi?*

# 6 VOKAL KOLLEKTİVLƏRİ

**Standart:** 1.2.1., 3.1.2.

**Məqsəd:** 1. Vokal musiqi kollektivlərini tanıyır.
2. Müxtəlif tərkibli ansamblarda "Qarabağ" mahnısını xor qaydalarına riayət etməklə ifa edir.

**İnteqrasiya:** Azərb. d.: 2.2.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, oyun, uyğunlaşdırma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Zəfər marşı" və "Qarabağ" mahnılarının videoçarxları və ya səsyazmaları, plakat, kartlar

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə plakat asır. Plakatda şaxələndirmə şəklində mərkəzdə *Hərbi paradda oxunan mahnılar* ifadəsi yazılmışdır. Bu ifadənin ətrafında isə mahnı oxumağı əsk etdirən müxtəlif şəkillər yerləşdirilib *(bir qadın, iki uşaq, iki qadın – bir uşaq, beş kişi, bir uşaq – bir qadın – bir kişi)*. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Hərbi paradda mahnıları oxumaq üçün hansı şəkildə verilmiş ifaçıları seçərdiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

*T.s.: Mahnıları ifa edən kollektivləri necə müəyyən etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə vokal musiqi haqqında məlumat verir (dərslik səh. 20).

*T1 (fərdi iş): Verilmiş fikirlərə uyğun anlayışları seçin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

“Musiqi əsərinin dinləmə qaydaları” (dərslik səh. 6) yada salınır. Müəllim musiqisi Rauf Məmmədova, sözləri Cəlal Qurbanova məxsus olan “Zəfər marşı” mahnısını səsləndirir.

*T2 (fərdi iş): Cümlədə nöqtələrin yerinə uyğun gələn ifadəni əlavə edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

“Mahnının ifa qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqi Rəşid Şəfəqə, sözləri Ələmdar Quluzadəyə məxsus olan “Qarabağ” mahnısını öyrədir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim “Ansambl” oyununu keçirir.

**“Ansambl” oyunun qaydaları:**

6 nəfər növbə ilə masaya yaxınlaşır və ansamblların adları yazılmış 6 kartdan birini götürür (2 “trio” kartı, 2 “kvartet” kartı, 2 “kvintet” kartı). Onlar kartda adı qeyd olunmuş ansambla görə qrupları formalaşdırırlar. Səsləndirilən mahnının bəndləri ardıcıllıqla ifa olunur: 1-ci bəndini triolar, II bəndini kvartetlər, III bəndini kvintetlər ifa edirlər. Mahnının nəqəratını isə bütün sinif xorla oxuyur.

*T3 (kiçik qruplarla iş): “Qarabağ” mahnısını xor qaydalarına riayət etməklə ansambl şəklində oxuyun.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Vokal kollektivlərinin digər kollektivlərlə oxşarlığı nədədir?*

# III BÖLMƏ

## MUSİQİ ƏSƏRLƏRİNİN MELODİYALARI

III bölmə 3 dərsi əhatə edir. Onun musiqi repertuarına, əsasən, mahnı janrında olan musiqi nümunələri daxil edilmişdir.

Bu bölmədə şagirdlərə mahnının melodiyası və mətni, intervallar və  musiqi ifadə vasitələri haqqında məlumatlar daha geniş şəkildə verilir. Bunun üçün fənn üzrə dövlət standartlarına uyğun olaraq müxtəlif məzmunlu tapşırıqlar və “İntervalı tapın” oyunu verilmişdir.

“Musiqi əsərlərinin melodiyaları müxtəlif obrazları, həyat hadisələrini, füsünkar təbiət lövhələrini əks etdirir. İnsanlar melodiyaları dinləyərkən onlarda müxtəlif təsəvvürlər yaranır” fikrini bölmənin əvvəlində şagirdlərə ***Mi notu*** personajı təqdim edir və bununla III bölmədə nədən danışılacağı barədə qısa məlumat verir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim III bölmədə reallaşan standartlara əsasən (1.1.2., 1.1.3., 2.1.1., 3.1.2., 3.3.1., 3.3.3.) qapalı və açıq tapşırıqlar hazırlayır.

# 7 MAHNININ MELODİYASI VƏ MƏTNİ

**Standart:** 2.1.1., 3.1.2.

**Məqsəd:** 1. Mahnıların melodiyası ilə mətninin arasında uyğunluğu müəyyənləşdirir.
2.”Fəsillər” mahnısını xor qaydalarına riayət etməklə oxuyur.

**İnteqrasiya:** T.i.: 3.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, qiymətləndirmə, cədvəllə iş, dərsliklə iş

**Resurs:** “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik səh. 6), “Sevil” operasından “Laylay” musiqi nümunəsi və “Fəsillər” mahnısının videoçarxları və ya səsyazmaları, “Anam Azərbaycanım” mahnısının səsyazması, kartlar, iş vərəqi

### Dərsin gedişi

***Motivasiya***

Müəllim musiqisi Oqtay Rəcəbova, sözləri Adil Babayevə məxsus olan “Anam Azərbaycanım” mahnısının melodiyasını səsləndirir QR və sinfə sualla müraciət edir:

– Sizcə, mahnıda nədən bəhs olunur? *(Şagirdlərin cavabları dinlənilir.)*

Sonra müəllim şagirdlərə həmin mahnının sözləri ilə birgə ifa olunan səsyazmasını və plakatda yazılmış mahnının sözlərini təqdim edir.

***T.s.:*** *Nə üçün mahnıdan sözləri “atmaq” olmaz? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə mahnı haqqında məlumat verir (dərslik səh. 24). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) yada salınır. Müəllim musiqisi Fikrət Əmirova məxsus olan "Sevil" operasından "Laylay" musiqisini səsləndirir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür və iş vərəqləri paylayır.

***T1*** *(cütlərlə iş): "Laylay" mahnısının melodiya və mətni haqqında fikirlərinizi 3 cümlə ilə ifadə edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim şagirdlərin diqqətini xalq və bəstəkar mahnıları haqqında mətnə yönəldir (dərslik səh. 25). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Cəlal Abbasova, sözləri Rafiq Yusifoğluna məxsus olan "Fəsillər" mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim cütlərə üzərində mahnının melodiyası və mətninə aid sxem olan iş vərəqi paylayır.

***T2*** *(cütlərlə iş): Verilmiş sözlərdən "Fəsillər" mahnısının melodiya və mətninə uyğun olanları seçin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün müəllim sinfə üzərində *"Yaz" qrupu – I bənd, "Yay" qrupu – II bənd, "Payız" qrupu – III bənd* və *"Qış" qrupu – IV bənd* yazılmış kartları paylayır. Şagirdlər kartlara əsasən 4 qrup yaradırlar. Müəllim qruplara qiymətləndirmə cədvəli paylayır. Hər qrup növbə ilə kartda qeyd olunmuş bəndi ifa edir. Digər qruplar isə bu ifanı cədvələ görə qiymətləndirir.

***T3*** *(kiçik qruplarla iş): Verilmiş cədvəlin əsasında qrupların ifasını qiymətləndirin ("+" və ya "-").*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

| Meyar | "Yaz" | "Yay" | "Payız" | "Qış" |
|---|---|---|---|---|
| İfa zamanı müəllimin göstərişlərinə diqqət yetirir. | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ |
| Bir mahnını eyni anda oxumağa başlayır və birgə bitirir. | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ |
| İfa zamanı başqalarından geri qalmır və tələsmir. | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ |
| Mahnını ifadəli oxuyur. | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ | ☆☆☆ |

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə sizin üçün maraqlı nə oldu?*

# 8 MELODİYADA İNTERVALLAR

**Standart:** 1.1.2, 3.3.1.

**Məqsəd:** 1. Musiqi nümunələrində prima, sekunda və tersiya intervallarını müəyyən edir.
2. “Əməyi sevirik biz” mahnısını 2 səsli ifa edir.

**İnteqrasiya:** Riy.: 4.2.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, oyun, sxem üzərində iş, dərsliklə iş

**Resurs:** “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik səh. 6), “Əməyi sevirik biz!” mahnısının videoçarxı və ya səsyazması, musiqi nümunələrindən bir parçanın səsyazması (“Bağçada gül” ,“El yallı”, “Qoy skripkaları köklənsinlər”, “Qızların xoru”, “Gözəl Vətən”, “Mahnı və rəqs”), mahnıların adları olan kartlar, kartondan not fiqurları, iş vərəqi

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə prima, sekunda və tersiya sözlərini yazır və sinfə suallarla müraciət edir:
– Musiqidə prima, sekunda və tersiyanı bir sözlə necə adlandırırlar? *(Şagirdlərin cavabları dinlənilir.)*

*T.s.: Musiqidə intervalları necə müəyyən etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim intervallar haqqında məlumat verib şagirdlərin diqqətini melodiyasının hərəkət sxemlərinə yönəldir (dərslik səh. 27). 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür. Hər cütə üzərində “Əməyi sevirik biz!” mahnısının melodiyasının hərəkəti sxemi olan iş vərəqi paylayır.

*T1 (cütlərlə iş): Verilmiş sxemə görə musiqi parçasında intervalları müəyyən edin. (Şəkil səh 28)*




Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

“Mahnının ifa qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Rəşid Şəfəqə, sözləri Rüfət Əhmədzadəyə məxsus olan “Əməyi sevirik biz!” mahnısını öyrədir.

*T2 (cütlərlə iş): “Əməyi sevirik biz!” mahnısının hər bəndinin 4-cü sətrini nümunədəki kimi oxuyun.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) yada salınır. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim "İntervalı tapın" oyununu keçirir.

**"İntervalı tapın" oyununun qaydaları:**

Şagirdlər qruplara bölünür. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşır. 6 musiqi nümunəsinin adları yazılmış kartlardan birini və kartondan hazırlanmış 12 notun fiqurlarını götürüb, öz qrupuna təqdim edir. Ardıcıllıqla səsləndirilən musiqi nümunələrindən kiçik parçaları növbə ilə dinləyir. Hər musiqi nümunəsinin adı yazılmış kartda onun ilk intervalına uyğun not fiqurlarını düzür və həmin kartda intervalın adını yazır.

| № | Mahnının adı | İnterval adı | İnterval not yazısı |
|---|---|---|---|
| 1 | "Bağçada gül" | Prima + | Si si |
| 2 | "El yallı" | sekunda | Sol lya |
| 3 | "Qoy skripkaları kökləsinlər" | prima | Si si |
| 4 | "Qızların xoru" | tersiya | Sol si |
| 5 | "Azərbaycana gəlsin" | Prima + | Mi mi |
| 6 | "Mahnı və rəqs" | sekunda | Lya si |

***T3** Musiqi nümunələrinin ilk intonasiyasının intervalını müəyyən edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? İntervalların müəyyən edilməsində sizə nə kömək etdi?*

# 9 MUSİQİ İFADƏ VASİTƏLƏRİ

**Standart:** 1.1.3., 2.1.1., 3.3.3.

**Məqsəd:** 1. "Qaytağı" və "Ləzgihəngi" rəqslərinin oxşar musiqi ifadə vasitələrini müəyyən edir.
2. "Dağlar" mahnısının melodiyası ilə mətninin arasında uyğunluğu haqqında fikir bildirir.
3."Dağlar" mahnısının 2/4 ölçüsünə uyğun dirijorluq edir.

**İnteqrasiya:** Riy.: 4.2.1., T.i.: 3.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, dirijorluq, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Dağlar" mahnısının, "Qaytağı" və "Ləzgihəngi" rəqslərinin videoçarxları və ya səsyazmaları, tablo, dirijorluq sxemi, iş vərəqi

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə payız fəslinə aid şəklin konturları olan tablo asır. Sonra sinfə suallarla müraciət olunur:

– “Payız” adlı şəkli rəngləmək üçün hansı rənglərdən isifadə edərdiniz? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Musiqi əsərində musiqi ifadə vasitələrinin seçiminə nə təsir edir? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim musiqi ifadə vasitələri haqqında məlumat verir və şagirdlərin diqqətini cədvələ yönəldir (dərslik səh. 30). “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim musiqisi Səid Rüstəmova, sözləri Mirmehdi Seyidzadəyə məxsus olan “Dağlar” mahnısını səsləndirir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür və iş vərəqləri paylayır.

***T1*** *(cütlərlə iş): “Dağlar” mahnısında melodiya ilə mətnin uyğunluğunu bir neçə cümlə ilə ifadə edin.*

“Dağlar” mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

“Mahnının ifa qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və şagirdlərin diqqətini dirijorluq sxeminə yönəldir (dərslik səh. 31).

***T2*** *(kollektiv və fərdi iş): “Dağlar” mahnısını oxuyaraq dirijorluq edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim “Qaytağı” Azərbaycan xalq rəqsi və “Ləzgihəngi” ləzgi xalq rəqsi haqqında məlumat verir (dərslik səh. 32). Sinif qruplara bölünür və həmin rəqslər səsləndirilir.

***T3*** *(kiçik qruplarla iş): Dinlədiyiniz rəqslərin oxşar musiqi ifadə vasitələrini sadalayın.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Musiqi ifadə vasitələri haqqında yeni nə öyrəndiniz?*

# IV BÖLMƏ

## İKİSƏSLİ MUSİQİ

IV bölmə özündə 4 dərsi birləşdirir. Bu bölmənin əsas vəzifəsi şagirdlərdə mahnıları ikisəsli oxuma bacarığının inkişaf etdirilməsidir.

Standartların tələblərinə və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olaraq musiqidə əks-səda, ritmik ikisəslilik, kanon, səsaltı sədalar haqqında ilkin və sadə məlumatlar verilmişdir. Həmin standartların reallaşması üçün bölmənin təlim materialına müxtəlif tapşırıqlar və "Zarafatyana kanon" oyunu daxil edilmişdir. Mahnının ikisəsli oxu bacarıqlarının formalaşdırması mərhələli öyrənmə prosesini nəzərdə tutur. Əvvəl eşitmə qabiliyyətini inkişaf etdirmək lazımdır. Bunun üçün çox sayda keyfiyyətli ifadə musiqi nümunələrini dinləmək vacibdir. Mahnının ikisəsli oxumaqdan əvvəl o dinlənilməli, musiqi ifadə vasitələri haqqında söhbət aparılmalıdır. İkisəsli oxu üçün əsasən major ladında yazılmış mahnılardan başlayıb, minor ladında ikisəsli ifaya keçmək olar. Vokal məşğələni keçirdikdən sonra mahnını əvvəl unison *(birsəsli)* oxumaq lazımdır. Bütün bu göstərilənləri əldə etdikdən sonra əsas melodiyaya ikinci səsi əlavə edərək mahnını ikisəsli ifa etmək olar. Bunun üçün mahnı əks-səda, ritmik ikisəslilik, sadə şəkildə kanon və melodik xəttinə səsaltı sədaları əlavə etməklə oxunur.

"Musiqi əsərləri bir, iki və çox səsli olur. Birsəsli musiqi əsərləri bir melodiya, ikisəsli musiqi əsərləri isə iki melodiyadan ibarətdir" fikrini bölmənin əvvəlində şagirdlərə ***Fa notu*** personajı təqdim edir və bununla IV bölmədə nədən danışılacağı barədə qısa məlumat verir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim IV bölmədə reallaşan standartlara əsasən (1.1.2., 3.1.1., 3.2.1., 3.2.2., 3.3.1.) qapalı və açıq tapşırıqlar hazırlayır.

# 10 MUSİQİDƏ ƏKS-SƏDA

**Standart:** 1.1.2., 3.3.1.

**Məqsəd:** 1. İfa olunan musiqi nümunələrinin melodiyalarında prima, sekunda və tersiya intervallarını müəyyən edir.
2. Mahnının 2 səsli ifasında əks-səda üsulundan istifadə edir.

**İnteqrasiya:** Azərb. d.: 1.2.2.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Əks-səda" mahnısının və "Dağlarda əks-səda" pyesinin videoçarxları və ya səsyazmaları, əks-sədanı əks etdirən videoçarx, iş vərəqi

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim əks-sədanı əks etdirən videoçarxı nümayiş edir. Sonra sinfə suallarla müraciət edir:

– Əks-səda haqqında nə bilirsiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Nə üçün musiqidə əks-səda üsulundan istifadə olunur? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə musiqidə əks-səda haqqında məlumat verir (dərslik səh. 34). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Hökümə Nəcəfovaya, sözləri Xanımana Əlibəyliyə məxsus olan "Əks-səda" mahnısını öyrədir. 1-ci tapşırığı yerinə yetirmək üçün sinif cütlərə bölünür. Cütün bir üzvü tapşırıqda qeyd olunmuş misraları *forte*, dinamik çaları ilə oxuyur, ikinci üzvü isə *piano* dinamik çaları ilə həmin parçanı təkrar edir.

***T1*** *(kollektiv və cütlərlə iş): "Əks-səda" mahnısının hər bəndinin birinci dörd misrasını əks-səda üsulu ilə (əvvəl* ***f***, *təkrarını* ***p****) oxuyun.*

"Əks-səda" mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim musiqisi Samuil Maykapara məxsus olan "Dağlarda əks-səda" pyesini səsləndirir. Cütlərə üzərində "Dağlarda əks-səda" pyesindən bir parçanın ritmik sxemi olan iş vərəqi paylanılır (dərslik səh. 35).

***T2*** *(cütlərlə iş): Verilmiş sxemdə qeyd olunmuş intervalları müəyyən edin.*




Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Bu dərsdə öz fəaliyyətiniz haqqında nə deyərdiniz?*

# 11 RİTMİK İKİSƏSLİLİK

**Standart:** 3.2.1.

**Məqsəd:** Mahnıları ifa edərək onları ikisəsli ritmik müşayiət edir.

**İnteqrasiya:** Azərb. d.: 1.2.2.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, ritmika, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Azərbaycana gəlsin" və "Yolka nəğməsi" mahnılarının videoçarxları və ya səsyazmaları

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə ritmik müşayiət növlərinin adlarını (*əl çalma, addımlama, zərb alətlərində çalma, çırtma* və s.) qeyd edir. Sonra sinfə sualla müraciət edir:

– Adları yazılmış ritmik müşayiət növlərini necə icra edirlər? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Mahnıların müşayiətində ritmik ikisəsliliyi necə təşkil etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə *ritmik ikisəslilik* haqqında məlumat verir (dərslik səh. 36). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini musiqisi Tofiq Quliyevə, sözləri Süleyman Rüstəmə məxsus olan "Azərbaycana gəlsin" mahnısının birinci bəndinin sxeminə yönəldir (dərslik səh. 36).

***T1*** *(kollektiv və cütlərlə iş): Verilmiş sxemə uyğun hərəkət edərək "Azərbaycana gəlsin" mahnısının birinci bəndini cütlərlə oxuyun.*

"Azərbaycana gəlsin" mahnısı səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Soltan Hacıbəyova, sözləri Mirmehdi Seyidzadəyə məxsus olan "Yolka nəğməsi" mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini rəqsdə düzülüş və hərəkət sxeminə (dərslik səh. 37) yönəldir, sinfi iki böyük qrupa bölür.

***T2*** *(kollektiv iş): "Yolka nəğməsi"ni ifa edərək sxemə uyğun rəqs edin.*

"Yolka nəğməsi" mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Hansı mahnının ritmik müşayiəti daha maraqlı idi?*

# 12 KANON

**Standart:** 3.1.1., 3.2.2.

**Məqsəd:** 1. Musiqi nümunələrinin kanonla ifasında əl hərəkətlərindən istifadə edir.
2. Mahnının bir hissəsini ***f*** və ***p*** dinamik çalarları ilə kanon ifa edir.

**İnteqrasiya:** Azərb.d.: 1.2.2.

**İş forması:** kollektiv, böyük qruplar, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, musiq alətində çalma, ritmika, oyun, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Yolka nəğməsi" mahnısının və "Zarafatyana kanon" musiqi nümunəsinin videoçarxları və ya səsyazmaları, zəng və dəf musiqi alətləri

## Dərsin gedişi:

### *Motivasiya*

Müəllim lövhədə üzərində kanon və ritmik müşayiət ifadələri yazılan kartlar asır (dərslik səh. 32). Sonra sinfə sualla müraciət edir:

– Kanon və ritmik müşayiət haqqında nə bilirsiniz? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Kanon şəklində ifa olunan mahnını ritmik müşayiətlə necə əlaqələndirmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərin diqqətini kanon haqqında məlumata yönəldir (dərslik səh. 38). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir. Şagirdlər musiqisi Soltan Hacıbəyova, sözləri Mirmehdi Seyidzadəyə məxsus olan "Yolka nəğməsi" mahnısını oxuyurlar. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə *zəng* və *dəf* musiqi alətlərini paylayır, sinfi cütlərə bölür. Şagirdlərin diqqəti mahnının nəqəratına aid sxemə yönəldilir.

***T1*** *(kollektiv və cütlərlə iş): "Yolka nəğməsi"nin nəqəratını verilmiş sxemə görə ifa edin.*

"Yolka nəğməsi" mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

Müəllim unison anlayışı haqqında məlumat verir və "Zarafatyana kanon" musiqi nümunəsini səsləndirir və öyrədir. Sonra şagirdlər "Zarafatyana kanon" musiqi nümunəsini (dərslik səh. 39) unison şəklində oxuyurlar. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim "Zarafatyana kanon" oyununu keçirir.

**"Zarafatyana kanon" oyunun qaydaları:**

Sinif iki qrupa bölünür: birinci qrup (1-ci səs), ikinci qrup (2-ci səs). "Zarafatyana kanon"u oxuyarkən hər misraya uyğun müəyyən hərəkətlər yerinə yetirilir: 1-ci misrada – əl çalma; 2-ci misrada – əlləri havada yellətmə; 3-cü misrada – şəhadət barmaqlarını silkələmə; 4-cü

misrada – ayaqları tappıldatma. Oyuna I qrup başlayır: I qrup 1-ci misranı bitirib 2-ci misraya keçəndə II qrup 1-ci misranı oxumağa başlayır. Beləliklə, oyun kanon şəklində davam edir.

***T2** (kollektiv və böyük qruplarla iş): Mahnının kanonla ifası zamanı şəkillərdə verilmiş hərəkətləri icra edin.*

"Zarafatyana kanon" musiqi nümunəsi təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Cümləni necə tamamlayardınız? "Bugünkü dərs mənim üçün...".*

# 13 SƏSALTI SƏDALAR

**Standart:** 3.1.1.

**Məqsəd:** 1. Musiqi nümunələrini səsaltı sədalarla iki səsli oxuyur.

**İnteqrasiya:** Azərb. d.: 1.2.2.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Qəhrəmanlar" mahnısının və "Hind gözəlinin rəqsi"n videoçarxları və ya səsyazmaları, "Ögey ana" filmindən bir parçanın videoçarxı

## Dərsin gedişi:

### *Motivasiya*

Müəllim əks-sədanı əks etdirən videoçarxı nümayiş edir. Sonra sinfə suallarla müraciət edir. Müəllim "Ögey ana" filmindən bir parçanı nümayiş etdirir. Sonra sinfə sualla müraciət edir:

– Baxdığınız videoçarxda əsas qəhrəman danışan zaman digərləri nə edirdilər? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:** Musiqi əsərlərinin səsaltı sədalarını necə oxumaq olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə səsaltı sədalar haqqında məlumat verir (dərslik səh. 40). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Ramiz Mustafayevə, sözləri Tofiq Mütəllibova məxsus olan "Qəhrəmanlar" mahnısını öy-

rədir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür və şagirdlərin diqqətini mahnının səsaltı sədalarla oxuma sxeminə (dərslik səh. 40) yönəldir.

***T1*** *(kollektiv və cütlərlə iş): "Qəhrəmanlar" mahnısının bəndlərini səsaltı sədalarla eyni səsdə oxuyun.*

"Qəhrəmanlar" mahnısı təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim musiqisi Qara Qarayevə məxsus olan "Yeddi gözəl" baletindən "Hind gözəlin rəqsi"ni səsləndirir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim cütlərin diqqətini "Hind gözəlin rəqsi"nin melodiyasının sxeminə yönəldir (dərslik səh. 41).

***T2*** *(kollektiv və cütlərlə iş): Verilmiş sxemdə "Hind gozəlinin rəqsi"nin melodiyasını və səsaltı sədalarını notla oxuyun.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə tapşırıqları yerinə yetirmək üçün sizə nə kömək etdi?*

## MUSİQİLİ KROSVORD
### (dərslik səh.42)

I yarım ildə reallaşması nəzərdə tutulan standartlar (1.1.1., 1.1.2., 1.1.3., 1.2.1., 2.1.1., 3.1.1., 3.1.2., 3.2.1., 3.2.2., 3.3.1., 3.3.2., 3.3.3.) öz əksini I-IV bölmələrin tədris materialında tapmışdır. Şagirdlərin bu müddətdə əldə etdikləri nailiyyətlərini yoxlamaq üçün dərslikdə musiqili krosvord təklif olunur.

### *Cavablar:*

1. Xor
2. Trio
3. Ritm
4. Professional
5. Major
6. Dağlar
7. Şən
8. Sekunda
9. Oynaq
10. Qaytağı
11. Piano
12. Yallı



# V BÖLMƏ

## MUSİQİ VƏ İNCƏSƏNƏTİN BAŞQA NÖVLƏRİ

V bölmə özündə 5 dərsi birləşdirir. Bu bölmənin əsas vəzifəsi şagirdlərdə musiqinin incəsənətin başqa növləri ilə əlaqəsini müəyyənləşdirmək bacarığını formalaşdırmaqdır.

Müəllim şagirdlərə bu istiqamətdə ədəbiyyat, kino və teleekran, teatr tamaşalarına, rəssamlıq və heykətaraşlıq sənətinə aid nümunələr təqdim edir. Musiqinin incəsənətin başqa növləri ilə əlaqəsini şagirdlər müxtəlif tapşırıqların yerinə yetirilməsi, “Musiqili ekran”, “Musiqi alətləri” və “Musiqili bağlama”oyunlarda iştirak etməklə mənimsəyirlər.

“İnsanın həyatında incəsənət böyük rol oynayır. Musiqi, ədəbiyyat, rəssamlıq, heykəltaraşlıq, kino və teatr incəsənətin növləridir. Bəzən müxtəlif incəsənət əsərlərində eyni məzmun və hisslər əks olunur” fikrini bölmənin əvvəlində şagirdlərə ***Sol notu*** personajı təqdim edir və bununla V bölmədə nədən danışılacağı barədə qısa məlumat verir. Bu bölmənin musiqi repertuarını musiqi alətləri haqqında, təbiət hadisələrini tərənnüm edən musiqi nümunələri təşkil edir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim V bölmədə reallaşan standartlara əsasən (1.2.2., 1.2.3., 2.1.2., 3.2.1.) qapalı və açıq tapşırıqları hazırlayır.

# 14 MUSİQİ VƏ ƏDƏBİYYAT

**Standart:** 2.1.2., 3.2.1.

**Məqsəd:** 1. Musiqi əsərlərinin məzmun və xarakterinə uyğun hekayə və atalar sözlərini müəyyən edir.
2. “Dilarə” mahnısını oxuyarkən temp və ritminə uyğun müşayiət edir.

**İnteqrasiya:** Azərb. d.: 2.1.1.

**İş forması:** kollektiv, kiçik qruplar, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, dərsliklə iş

**Resurs:** “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik səh. 6), “Əks-səda” mahnısının və “Dağlarda əks-səda” pyesinin videoçarxları və ya səsyazmaları, əks-sədanı əks etdirən videoçarx, iş vərəqi

### Dərsin gedişi

***Motivasiya***

Müəllim lövhədə dərsin mövzusunu yazır: “Musiqi və ədəbiyyat”. Sonra sinfə sualla müraciət edir:

– Bədii əsərin qəhrəmanları – Tutu, Xədicə, Piri baba və başqaları hansı musiqi əsərinin qəhrəmanlarıdır? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Nə üçün musiqi əsərlərini bədii nümunələrə uyğunlaşdırmaq olur? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim *musiqi və bədii nümunələr* haqqında məlumat verir (dərslik səh. 44). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Oqtay Zülfüqarova, sözləri Tofiq Mütəllibova məxsus olan "Dilarə" mahnısını öyrədir. 1-ci tapşırığı yerinə yetirmək üçün sinif cütlərə bölünür. Hər cütə üzərində 4 atalar sözü (*Bu günün işini sabaha qoyma, İş insanın cövhəridir,* ***<u>Dost yaman gündə tanınar</u>****, Kitab bilik mənbəyidir)* yazılmış kartlar paylanır.

***T1*** *(cütlərlə iş): "Dilarə" mahnısının məzmununa uyğun atalar sözünü seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi qruplara bölür və hər qrupa zərb musiqi alətləri paylayır.

***T2*** *(kiçik qruplarla iş): Mahnının hissələrini ritm və tempinə uyğun müşayiət edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Musiqisi Qara Qarayevə məxsus olan "Hekayə" pyesi səsləndirir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim qrupların diqqətini "Dostlar", "Günəşin şikayəti" və "Pişik və siçan" adlı mətnlərə (dərslik səh. 45-46) yönəldir.

***T3*** *(kiçik qruplarla iş): Verilmiş mətnlərdən "Hekayə" pyesinin xarakterinə uyğun olanını seçin.*

"Hekayə" pyesi təkrar səsləndirilir. Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdəki fəaliyyətinizi hansı sima ilə qiymətləndirərdiniz?*

# 15 MUSİQİLİ EKRAN

**Standart:** 2.1.2.

**Məqsəd:** 1. İfa etdiyi mahnını xarakterinə görə filmlərlə müqayisə edir.
2. Musiqi nümunəsinin xarakterinə uyğun kiçik mətn yazır.

**İnteqrasiya:** H.b.: 3.2.1.

**İş forması:** kollektiv, kiçik qruplar, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, oyun, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Dostluq mahnısı"nın ("Bəxtiyar" kinofilmdən), "Qala" və "Sehrli xalat" kinofilmlərindən bir parçanın videoçarxları və ya səsyazmaları, qeydiyyat vərəqi, qiymətləndirmə cədvəli, iş vərəqi

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə "Əzablı yollar", "Qərib cinlər diyarında", "Sehrli xalat" və "Bir qalanın sirri" kinofilmlərin adlarını yazır və "Sehrli xalat" kinofilmindən musiqi nümunəsini səsləndirir. Sonra şagirdlərə suallarla müraciət edir:

– Dinlədiyiniz musiqi hansı kinofilmdə səslənir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Nə üçün filmlərdə musiqidən istifadə edirlər? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim *ekranda səslənən musiqi* haqqında məlumat verir (dərslik səh. 47). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Tofiq Quliyevə, sözləri Ənvər Əlibəyliyə məxsus olan "Dostluq mahnısı"nı ("Bəxtiyar" kinofilmdən) öyrədir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini "Pıspısa xanım və Siçan bəy" və "Cırtdan" cizgi filmlərinə aid illüstrasiyalara yönəldir (dərslik səh. 48).

***T1*** *(fərdi iş): "Dostluq mahnısı"nda əks olunan hisslərə uyğun verilmiş cizgi filmlərindən birini seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim "Musiqili ekran"oyununu keçirir.

**"Musiqili ekran" oyununun qaydaları:**

Qruplar təşkil edilir. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb qiymətləndirmə cədvəlini və iş vərəqini götürür. Videoçarx nümayiş olunur. Qruplar burada – səslənən musiqinin xarakterinə uyğun videoçarx üçün kiçik mətn yazıb onu adlandırırlar. Növbə ilə hər qrupun bir nümayəndəsi qrupun mətnini "ekran" (lövhə) qarşısında oxuyur. Digər qruplar isə onun çıxışını cədvələ görə qiymətləndirir ("+" – uyğundur, "-" – uyğun deyil).

***T2*** *(kiçik qruplarla iş): Cədvəli doldurun.*

| Qrupun nömrəsi | Mətnin adı | Mətn musiqinin xarakterinə uyğundur ("+" və ya "-") |
|---|---|---|
| 1-ci | Sərbəst | Sərbəst |
| 2-ci | Sərbəst | Sərbəst |
| 3-cü | Sərbəst | Sərbəst |
| 4-cü | Sərbəst | Sərbəst |

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün müəllim qruplara qeydiyyat vərəqi paylayır. Musiqi III sinif s 48

***T3*** *(kiçik qruplarla iş): "Qala" və "Bəxtiyar" kinofilmlərindəki musiqi nümunələrini xarakterinə görə müqayisə edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə görülən hansı işinizi daha yüksək qiymətləndirərdiniz?*

# 16 MUSİQİLİ TAMAŞA

**Standart:** 1.2.2., 2.1.2.

**Məqsəd:** 1. Milli və Avropa musiqi kollektivlərinin alətlərini fərqləndirir.
2. Musiqili tamaşanı məzmun və xarakterinə görə atalar sözləri ilə uyğunlaşdırır.

**İnteqrasiya:** H.b.: 3.2.1.

**İş forması:** kollektiv, kiçik qruplar, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, ritmika, oyun, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Balaca dirijor" mahnısının, "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılı və eyni adlı musiqi tamaşasının videoçarxları və ya səsyazmaları, kartlar, iş vərəqi

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim Mikayıl Müşfiqə məxsus olan "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılına aid videoçarxı nümayiş edir.

Sonra şadirdlərə suallarla müraciət edir:

– Şəngülüm, Şüngülüm, Məngülüm" nağılı nədən bəhs edir? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Tamaşanın məzmununu musiqi və bədii nümunələrlə necə ifadə etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərin diqqətini musiqili tamaşa haqqında mətnə yönəldir (dərslik səh. 50). "Musiqi əsərinin dinləmə qaydaları" şagirdlərin yadına salınır. Müəllim musiqisi Oqtay Zülfüqarova, sözləri Ramiz Heydərə məxsus olan "Şəngülüm, Şüngülüm, Məngülüm" musiqi tamaşasından bir parça nümayiş etdirir.

1-ci tapşırığı yerinə yetirmək üçün sinif cütlərə bölünür. Hər cütə üzərində 6 atalar sözləri *(Bilmədiyini biləndən soruş, Elmsiz adam qanadsız quş kimidir,* ***Düşmən zəif olsa da, ehtiyatı əldən vermə****, Yalançının evi yandı heç kim ona inanmadı,* ***Eşitdiyinə inanma, gördüyünə inan****, İki qoçun başı bir qazanda qaynamaz)* yazılmış kartlar paylanır.

***T1*** *(cütlərlə iş): "Şəngülüm, Şüngülüm, Məngülüm" musiqili tamaşasının məzmununa uyğun atalar sözlərini seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Asya Sultanovaya, sözləri Teymur Elçinə məxsus olan "Balaca dirijor" mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini mahnıda adları çəkilən musiqi alətlərinə (kontrabas, şeypur, saksofon, qarmon, baraban, tütək) yönəldir və onlarda ifa tərzini nümayiş edir.

*T2 (fərdi iş): Mahnının məzmununda bəhs olunan davranışı hərəkətlərlə təsvir edin.*

"Balaca dirijor" mahnısı təkrar səsləndirilir. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün müəllim "Musiqi alətləri" oyununu keçirir.

**"Musiqi alətləri" oyununun qaydaları:**

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb "Balaca dirijor" mahnısının mətni və müxtəlif musiqi alətlərinin adı yazılmış *(arfa, kamança, tar, skripka, saz, ney, çəng, zəng, nağara, gitara, qanun, dəf, fleyta)* iş vərəqini götürür. Mahnının mətnində olan musiqi alətlərinin adını iş vərəqində yazılmış musiqi alətlərinin adı ilə əvəz edir: I bənddə Avropa musiqi alətlərinin adları ilə, II bənddə – Azərbaycan xalq musiqi alətlərinin adları ilə. Hər qrup növbə ilə mahnının mətnində etdiyi dəyişikliklərlə onu ifa edir.

*T3 (kiçik qruplarla iş): Musiqi alətlərində çalmağı hərəkətlərlə təsvir edərək "Balaca dirijor" mahnısını mətində etdiyiniz dəyişikliklərlə oxuyun.*

"Balaca dirijor" mahnısı a kapella ifa olunur. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Mahnının məzmununu səhnələşdirmək üçün dərsdə öyrəndikləriniz sizə necə kömək edər?*

# 17 DAŞLARI CANLANDIRAN SƏNƏT VƏ MUSİQİ

**Standart:** 1.2.3., 2.1.2., 3.2.1.

**Məqsəd:** 1. Baraban musiqi aləti haqqında təqdimat edir.
2. Dinlədiyi və ifa etdiyi musiqi əsərlərini məzmun və xarakterinə görə heykəltaraşlıq əsərləri ilə uyğunlaşdırır.
3. "Türksayağı rondo"nu ritminə uyğun müşayiət edir.

**İnteqrasiya:** Azərb.d.: 1.2.1.; H.b.: 3.2.1.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, ritmika, musiqi alətlərində çalma, uyğunlaşdırma, təqdimat, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Yaşa, mənim xalqım!" mahnısının və "Türksayağı rondo"nun videoçarxları və ya səsyazmaları, "Koroğlu heykəli"nin illüstrasiyası, baraban və çubuqlar, iş vərəqləri

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim heykəltaraş Tokay Məmmədova məxsus olan "Koroğlu heykəli"nin illüstrasiyasını sinfə nümayiş edir. Sonra şagirdlərə suallarla müraciət edir:

– “Koroğlu heykəli”ni xarakterinə görə hansı musiqi nümunələri ilə əlaqələndirərdiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Musiqi əsərini heykəltaraşlıqla necə əlaqələndirmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

## *Fəaliyyət*

Müəllim şagirdlərə musiqi və heykəltaraşlıq haqqında məlumat verir (dərslik səh. 52). “Mahnının ifa qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Rauf Məmmədova, sözləri Zivər Ağayevaya məxsus olan “Yaşa, mənim xalqım!” mahnısını öyrədir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi qruplara bölür, hər qrupa bir abidənin təsviri olan kart (20 Yanvar abidə-kompleksi, Ana harayı abidəsi, “Qalib əsgər” abidəsi, “Dəmir yumruq” abidəsi) və qeydiyyat vərəqi paylayır. .

***T1*** *(kiçik qruplarla iş): “Yaşa, mənim xalqım!” mahnısını xarakter və məzmununa görə verilmiş abidələrdən biri ilə müqayisə edin.*

“Yaşa, mənim xalqım!” mahnısı təkrar səsləndirilir. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

“Musiqi əsərinin dinləmə qaydaları” şagirdlərin yadına salınır. Müəllim Volfqanq Amadey Motsarta məxsus olan “Türksayağı rondo”nu səsləndirir. 2-ci tapşırığı yerinə yetirmək üçün qruplara iş vərəqləri paylanılır və şagirdlərin diqqəti davul musiqi alətində çalan musiqiçinin heykəlinə (dərslik səh. 53) yönəldir.

*İş vərəqi:*

1. ______________________________
2. ______________________________
3. ______________________________




***T2*** *(kiçik qruplarla iş): “Türksayağı rondo” və şəkildəki heykələ əsasən davul musiqi aləti haqqında təqdimat hazırlayın.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün müəllim hər qrupa baraban və qrup üzvlərinin sayına görə cubuq paylayır.

***T3*** *(kiçik qruplarla iş): “Türksayağı rondo”nun bir parçasını ritminə uyğun barabanda müşayiət edin.*

“Türksayağı rondo” əsəri təkrar səsləndirilir. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

## *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə daha çox xoşunuza nə gəldi?*

# 18 NOVRUZ ƏYLƏNCƏLƏRİ

**Standart:** 2.1.2.

**Məqsəd:** 1. Dinlədiyi və ifa etdiyi musiqi əsərlərini məzmun və xarakterinə görə şeir və xalq oyunları ilə uyğunlaşdırır.

**İnteqrasiya:** T.i.: 3.1.1.

**İş forması:** kollektiv, kiçik qruplar, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, oyun, uyğunlaşdırma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Xoş gəlmisən, Novruzum!" mahnısının videoçarxı və ya səsyazması, tanıtım lövhələri, kartlar, ləçək, sini

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim şagirdlərin diqqətini Novruz bayramına aid şəklə yönəldir (dərslik səh. 54). Sonra şagirdlərə suallarla müraciət edir:

– Şəkildə hansı milli bayram təsvir olunmuşdur? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Musiqi və bədii nümunələrdə Novruz bayramını necə əks etdirmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə Novruz bayramı haqqında məlumat verir (dərslik səh. 54). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi və sözləri Səadət Fərziyevaya məxsus olan "Xoş gəlmisən, Novruzum!" mahnısını öyrədir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür və diqqətlərini Abdulla Şaiqin "Kəpənək", Bəxtiyar Vahabzadənin "Müəllim" və Abbas Səhhətin "Yaz" şeirlərindən verilmiş parçalara (dərslik səh. 56) yönəldir .

***T1*** *(cütlərlə iş): Veilmiş şeirlərdən "Xoş gəlmisən, Novruzum!" mahnısının məzmununa uyğun olanını seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim "Musiqili bağlama" oyununu keçirir. Oyunu keçirməmişdən əvvəl müəllim hər qrupun nömrəsini (1, 2, 3, 4) bildirən tanıtım lövhələri hazırlayır. Bundan başqa 4 kart da hazırlanır: 1/3, 2/4, 3/2, 4/1. Yuxarıdakı nömrə qrupun öz nömrəsini, aşağıdakı nömrə isə bağlama ilə dəyişəcəyi qrupun nömrəsini bildirir.

**"Musiqili bağlama" oyununun qaydaları:**

4 qrupa bölünün. Qruplardan bir nümayəndə masadakı sinidən müxtəlif formalarda (qoğal, paxlava, şəkərbura) üç boş kart, bir ləçək və iki nömrəsi olan bir kart (yuxarıda – qrupun öz nömrəsi, aşağıda – bağlama ilə dəyişəcəyi qrupun nömrəsi) götürür. Hər qrup üç boş karta "Novruz" mövzusuna uyğun bir mahnı, bir rəqs adı və sual yazır, Sonra onları ləçəyə

qoyub bağlama düzəldir. 2 nömrəli karta əsasən bağlamalar qruplar arasında dəyişdirilir. Həmin bağlamalarda olan kartlara görə qruplar növbə ilə mahnı oxuyur, rəqs edir və sualı cavablandırırlar.

***T2*** *(kiçik qruplarla iş): Kartlarda qeyd olunmuş musiqi nümunələrinin bir parçasını ifa edin və suala cavab verin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

***Ümumiləşdirmə və refleksiya***

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? İncəsənətin növləri haqqında daha nəyi öyrənmək istəyərdiniz?*

# VI BÖLMƏ

## MUSİQİLİ ŞƏKİLLƏR

VI bölmə 4 dərsi əhatə edir. Bölmənin əsas məqsədlərindən biri musiqinin rəssamlığın növləri ilə əlaqəndirmək bacarığını formalaşdırmaqdır.

Müəllim şagirdlərdə bu istiqamətdə biliklərin verilməsi və bacarıqların formalaşdırılması üçün müxtəlif üsullardan istifadə edə bilər. Bu üsullara musiqi və bədii ifadə vasilərinin müəyyənləşdirməsi, musiqi və rəsm nümunələrinin müqayisəsi, şəkillərin çəkilməsi də aiddir.

"Musiqi və rəngkarlıq incəsənətin növləridir. Hər iki növün oxşar və fərqli ifadə vasitələri vardır. Bu vasitələrlə musiqi və rəngkarlıq əsərlərində müxtəlif obrazları canlandırmaq olur" fikri ilə Lya notu personajı şagirdlərə VI bölmədə nədən danışılacağı barədə qısa məlumat verir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim VI bölmədə reallaşan standartlara əsasən (1.2.2., 2.1.2., 3.1.1., 3.3.3.) qapalı və açıq tapşırıqları hazırlayır.

## 19 MUSİQİDƏ PORTRET

**Standart:** 2.1.2., 3.1.1.

**Məqsəd:** 1. Dinlədiyi və ifa etdiyi musiqi əsərinin məzmun və xarakterinə uyğun portret janrında şəkli müəyyən edir.
2. "İgid əsgər, möhkəm dayan!" mahnısını iki səsli oxuyur.

**İnteqrasiya:** T.i.: 3.1.1.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, rəsmçəkmə, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "İgid əsgər, möhkəm dayan!" mahnısının və "Patetik sonata"nın I hissəsinin videoçarxları və ya səsyazmaları, portret şəkilləri, sadə və rəngli karandaşlar, iş vərəqi

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə  bir neçə portret asır. Sonra sinfə suallarla müraciət edir:
– İnsanın surətini əks edən rəsm əsərləri necə adlanır? *(Şagirdlərin cavabları dinlənilir.)*
***T.s.:*** *Musiqidə portreti necə təsvir etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə musiqidə portret haqqında məlumat verir (dərslik səh. 58). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi və sözləri Şahin Musaoğluna məxsus olan "İgid əsgər, möhkəm dayan!" mahnısını öyrədir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfə iş vərəqi, sadə və rəngli karandaşlar paylayır.

***T1*** *(fərdi iş): Mahnının məzmun və xarakterinə uyğun əsgər portretini çəkin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür. Cütlərin diqqəti "İgid əsgər, möhkəm dayan!" mahnısının 2 səslə oxunması nümunəsinə (dərslik səh. 59) yönəldilir.

***T2*** *(cütlərlə iş): Verilmiş sxemə görə "İgid əsgər, möhkəm dayan!" mahnısının bəndlərini iki səsli oxuyun.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" şagirdlərin yadına salınır. Müəllim sonata və patetika anlayışları haqqında məlumat verir və Lüdviq van Bethovenə məxsus olan "Patetik sonata"nın I hissəsini səsləndirir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim cütlərin diqqətini rəsmlərə /"Lənkəran qızları" (Böyükağa Mirzəzadə), "Neftçilər" (Tofiq Cavadov)/ və fotoşəkillərə /Sevimli müəllim, Topçu Vüsal/ (dərslik səh. 59) yönəldir.

***T3*** *(cütlərlə iş): Veilmiş nümunələrdən "Patetik sonata"nın I hissəsinin xarakterinə uyğun olanını seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə tapşırıqları yerinə yetirmək üçün nə etdiniz?*

# 20 MUSİQİLİ NATÜRMORT

**Standart:** 2.1.2., 3.1.1.

**Məqsəd:** 1. Dinlədiyi və ifa etdiyi musiqi əsərinin məzmun və xarakterinə uyğun natürmort janrında şəkil müəyyən edir.
2. "Qızılgül" mahnısını iki səsli oxuyur.

**İnteqrasiya:** T.i.: 3.1.1.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "2 nömrəli ekspromt"un və "Qızılgül" mahnısının videoçarxları və ya səsyazmaları, Mirmehdi Seyidzadənin "Tər çiçəklər" şeirindən bir parça

## Dərsin gedişi

### *Motivasiya*

Müəllim lövhədə portret və natürmort sözlərini yazır və Mirmehdi Seyidzadənin "Tər çiçəklər" şeirindən bir parça söyləyir:

Bir dəstə təzə çiçək
Qoyulmuşdu güldana.
Evdə ətir saçırdı
Tər çiçəklər hər yana.

Sonra sinfə suallarla müraciət edir:

– Verilmiş şeir parçası hansı rəsmin növünə uyğundur? *(Şagirdlərin cavabları dinlənilir.)*

***T.s.:*** *Musiqi ilə natürmortu necə əlaqələndirmək olar? (Şagirdlərin cavabları dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə *musiqi və natürmort* haqqında məlumat verir (dərslik səh. 60). "Musiqi əsərinin dinləmə qaydaları" şagirdlərin yadına salınır. Müəllim musiqisi Fikrət Əmirova məxsus olan "2 nömrəli ekspromt"u səsləndirir. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini rəsmlərə ("Xəncərlə natürmort" /Maqomed Dibirov/, "Kitabla natürmort" /Anri Fanten-Latur/, "İkihürgüclü dəvə" /Guigen Zha/, "Natürmort" /Toğrul Nərimanbəyov/) yönəldir (dərslik səh. 60).

***T1*** *(fərdi iş): "2 nömrəli ekspromt"un xarakterinə uyğun olan natürmortu seçin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Hatəm Nəbioğluna, sözləri Abdulla Şaiqə məxsus olan "Qızılgül" mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür, şagirdlərin diqqətini "Qızılgül" mahnısının işarələnmiş hissəsini kanon şəklində oxunması qaydasına (dərslik səh. 61) yönəldir.

***T2*** *(cütlərlə iş): "Qızılgül" mahnısının işarələnmiş hissəsini kanon şəklində oxuyun.*

"Qızılgül" mahnısı təkrar səsləndirilir. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdəki əhval-ruhiyyənizə görə güldana hansı qızıl gülü qoyardınız?*

# 21 MUSİQİDƏ TƏBİƏT LÖVHƏLƏRİ

**Standart:** 1.2.2., 2.1.2., 3.3.3.

**Məqsəd:** 1.Tar və skripka musiqi alətlərindən ibarət musiqi kollektivlərini fərqləndirir.
2.Dinlədiyi və ifa etdiyi musiqi əsərinin məzmun və xarakterinə uyğun mənzərə janrında şəkil çəkir.
3."Şən Azərbaycan" mahnısını oxuyaraq 3/4 ölçüsünə uyğun dirijorluq edir.

**İnteqrasiya:** Riy.: 4.2.1.; T. i.: 3.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, dirijorluq, Venn diaqramı, rəngləmə, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Şən Azərbaycan" mahnısının və 2 nömrəli konsertdən ("Yay") "Tufan" musiqi nümunəsinin videoçarxları və ya səsyazmaları, rəngli karandaşlar, iş vərəqləri

**Dərsin gedişi:**

### *Motivasiya*

Müəllim lövhədə dərsin mövzusunu "Musiqidə təbiət lövhələri" qeyd edir: Sonra sinfə suallarla müraciət edir:

– Təbiət haqqında hansı musiqi nümunələrini bilirsiniz? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Təbiəti təsvir edən musiqini rəsmlə necə əlaqələndirmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə musiqidə təbiət lövhələri haqqında məlumat verir (dərslik səh. 62). 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi qruplara bölür və üzərində Venn diaqramı olan iş vərəqi paylayır. Tək qruplar "Şən Azərbaycan" mahnısını "Qudyalçay vadisi" /Səttar Bəxlulzadə"/, cüt qruplar – "Zəngilanın üzüm bağları" /Nadir Əbdürrəhmanov/ rəsm əsərləri ilə (dərslik səh. 62) müqayisə edirlər. "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim musiqisi Polad Bülbüloğluna, sözləri Məstan Günərə məxsus olan "Şən Azərbaycan" mahnısını səsləndirir.

***T1*** *(kiçik qruplarla iş): Məzmun və xarakterinə görə "Zəngilanın üzüm bağları" və "Qudyalçay vadisi" şəkillərini "Şən Azərbaycan" mahnısı ilə müqayisə edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

“Mahnının ifa qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və “Şən Azərbaycan” mahnısını öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini dirijorluq sxeminə (dərslik səh. 63) yönəldir.

***T2*** *(kollektiv və fərdi iş): “Şən Azərbaycan” mahnısını oxuyaraq dirijorluq edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün qrup üzvlərinə fərdi iş verilir. Müəllim şagirdlərə üzərində cədvəl olan iş vərəqi paylayır və musiqi alətlərinin təsvirinə yönəldir (dərslik səh. 64).

| | |
|---|---|
| **Azərbaycan musiqi alətlərinin ifasında** | |
| **Avropa musiqi alətlərinin ifasında** | |

Müəllim musiqisi Antonio Vivaldiyə məxsus olan 2 nömrəli konsertdən (“Yay”) “Tufan” musiqi nümunəsini səsləndirir.

***T3*** *(fərdi iş): “Tufan” musiqi nümunəsində istifadə olunan musiqi alətlərinin adını cədvəldə qeyd edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

4-cü tapşırığı yerinə yetirmək üçün müəllim qruplara üzərində mövzuya rəsmin kontur cizgiləri olan (dərslik səh. 64) iş vərəqi və rəngli karandaşlar paylayır.

***T4*** *(kiçik qruplarla iş): İş vərəqində verilən şəkli “Tufan” musiqi nümunəsinin xarakterinə uyğun rəngləyin.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdə yaranan suallara cavab ala bildinizmi?*

# 22 SƏRGİDƏ

**Standart:** 2.1.2., 3.3.3.

**Məqsəd:** 1. Dinlədiyi musiqi əsərinin məzmun və xarakterinə uyğun təsviri incəsənət növlərinə aid nümunələrini müəyyən edir.
2. "Şəkillər haqqında mahnını" oxuyaraq 4/4 ölçüsündə uyğun dirijorluq edir.

**İnteqrasiya:** Riy.: 4.2.1.; T. i.: 3.1.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, dirijorluq, rəsmçəkmə, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "İgidlər" Azərbaycan xalq rəqsinin və "Şəkillər haqqında mahnı"nın videoçarxları və ya səsyazmaları, rəngli karandaşlar, iş vərəqləri

**Dərsin gedişi:**

### *Motivasiya*

Müəllim lövhədə Bertold Brextin kəlamını qeyd edir: "İncəsənət bilikləri tələb edir". Sonra sinfə suallarla müraciət edir: – Sizcə, incəsənət hansı bilikləri tələb edir? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Musiqi və rəsmlərin uyğunluğunu necə müəyyən etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə sərgilər haqqında məlumat verir (dərslik səh. 65). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim "İgidlər" Azərbaycan xalq rəqsini səsləndirir və şagirdlərin diqqətini şəkillərin adlarına (dərslik səh. 65) yönəldir.

***T1*** *(fərdi iş): "İgidlər" rəqsinin məzmun və xarakterinə uyğun adları verilmiş şəkli seçin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Gennadi Qladkov-Yuginə, sözləri Aleksandr Kuşnerə məxsus olan "Şəkillər haqqında mahnı"nı öyrədir. 2-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini dirijorluq sxeminə (dərslik səh. 66) yönəldir.

***T2*** *(kollektiv və fərdi iş): "Şəkillər haqqında mahnı"nı oxuyaraq dirijorluq edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün müəllim sinfi 6 qrupa bölür, hər qrupa üzərində şəklini çəkəcəyi bir bəndin nömrəsi yazılmış (I bənd, II bənd, III bənd) iş vərəqi və rəngli karandaşlar paylayır.

***T3*** *(kiçik qruplarla iş): Mahnının bəndlərinin məzmununa görə şəkil çəkin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Cümləni necə tamamlayardınız? "İndi mən bilirəm ki,...".*

# VII BÖLMƏ

## KONSERT ZALINDA

VII bölmə 4 dərsdən ibarətdir. Keçmiş tədris illərində olduğu kimi bu bölmə bütün il boyu keçilən tədris materialının təkrarını və nailiyyətlərinin üzə çıxarılmasını nəzərdə tutur. Şagirdlər keçilən musiqi materialından istifadə edərək "Canım mənim, məmləkətim!" adlı konsertə bir neçə dərs hazırlaşırlar. Bu səbəbdən müəllim "konsert zalında" bölməsinin dərslərini tədris edərək şagirdlərin dinləyici və ifaçı mədəniyyətinə xüsusi diqqət yetirməlidir. "Afişa" mövzusunda olan dərsdə şagirdlər müəyyən tapşırıqları yerinə yetirməklə konsertdə ifa edəcəkləri (3 mahnı, 3 rəqs) repertuarı seçirlər. "Konsertə hazırlıq" adlı dərsdə "Repetisiya" oyunu keçirilir. Bu oyunun keçirilmə məqsədi – şagirdlərin konsertə hazırlığına özləri nəzarət edib, bu hazırlığı qiymətləndirməkdir. Sonuncu dərs isə "Bayram konserti" adlanır və bu dərs sinif konsertinin keçirilməsinə həsr olunur. Şagirdlər yekun dərsdə il boyu öyrəndikləri mahnı və rəqsləri ifa edərək aldıqları bilik və bacarıqlarını nümayiş edirlər. Müəllim sonuncu dərsdə keçiriləcək konsertə qonaqları (məktəbin pedaqoji-müəllim heyətinin üzvləri, valideyn və s.) dəvət edə bilər.

"Konsert zalı, opera teatrı və filarmoniya hər bir şəhərin mədəni həyatının ayrılmaz hissəsidir. Belə yerlərdə musiqi festivalları, konsertlər və digər mühüm tədbirlər keçirilir. Konsert zallarında insanlar səslənən musiqidən həzz alırlar, onlarda müsbət enerji və xoş emosiyalar yaranır" fikri ilə ***Si notu*** personajı şagirdlərə VII bölmədə nədən danışılacağı barədə qısa məlumat verir. Bu bölmənin musiqi repertuarını əsasən "Canım mənim, məmləkətim!" mövzusuna uyğun musiqi nümunələri təşkil edir. Müəllim bu bölmədə hər hansı musiqi nümunəsini səsləndirərkən şagirdlərin diqqətini daha çox onun məzmununa və xarakterinə yönəltməlidir.

Kiçik summativ qiymətləndirməni keçirmək üçün müəllim VII bölmədə reallaşan standartlara əsasən (1.1.3., 1.2.1., 1.2.3., 3.1.2., 3.2.1., 3.2.2., 3.3.2) qapalı və açıq tapşırıqları hazırlayır.

## 23 "CANIM MƏNİM, MƏMLƏKƏTİM!"

**Standart:** 1.1.3., 1.2.3., 3.1.2.

**Məqsəd:** 1. Dinlədiyi və ifa etdiyi Azərbaycan və türk yallısının oxşar cəhətlərini müəyyən edir.
2. Vokal və rəqs kollektivləri haqqında təqdimat edir.
3. "Azərbaycan" mahnısını xorla ifa qaydalarına riayət etməklə oxuyur.

**İnteqrasiya:** H.b.: 1.1.1.

**İş forması:** kollektiv, kiçik qruplar, fərdi

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, qiymətləndirmə, təqdimat, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6), "Azərbaycan" mahnısının, "Yallı" və "Deliloy, deliloy, dastanı" rəqslərinin videoçarxları və ya səsyazmaları, xor və rəqs kollektivlərinin konsertlərdə çıxışını təsvir edən şəkillər, iş vərəqləri

## Dərsin gedişi:

### *Motivasiya*

Müəllim xor və rəqs kollektivlərinin konsertlərdə çıxışını təsvir edən şəkilləri nümayiş edir. Sonra sinfə suallarla müraciət edir:

– Şəkillərdə hansı kollektivlərin çıxışı təsvir olunub? (Şagirdlərin cavabları dinlənilir.)

***T.s.:*** *Konsertdə çıxış edən kollektivlərin ifaçılıq səviyyəsini necə müəyyən etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə konsertlərin təşkili haqqında məlumat verir (dərslik səh. 68). 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi 6 qrupa bölür və hər qrupa üzərində vokal və rəqs kollektivləri haqqında təqdimatın hazırlanması üçün istiqaməti olan iş vərəqi paylayır (dərslik səh. 68):

***Vokal kollektivi***

- *Vokal kollektivlərinin yazılı təsvirini verin.*
- *Nümunələr gətirin.*
- *Suala cavab verin: vokal kollektivinin ifaçılıq səviyyəsi nə deməkdir?*

***Rəqs kollektivi***

- *Rəqs kollektivlərinin yazılı təsvirini verin.*
- *Nümunələr gətirin.*
- *Suala cavab verin: rəqs kollektivinin ifaçılıq səviyyəsi nə deməkdir?*

Vokal kollektivi haqqında I, III və V qruplar, rəqs kollektivi haqqında isə II, IV və VI qruplar təqdimat hazırlayırlar.

***T1*** *(kiçik qruplarla iş): İş vərəqlərinə əsasən vokal və rəqs kollektivləri haqqında təqdimat edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim qruplara üzərində cədvəl olan iş vərəqi paylayır (dərslik səh. 69): “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim “Yallı” Azərbaycan xalq rəqsini və “Deliloy, deliloy dastanı” türk xalq rəqsini səsləndirir.

***T2*** *(kiçik qruplarla iş): Verilmiş sozlərdən istifadə etməklə cədvəli doldurun.*

Rəqsin xarakteri: *təntənəli, fikirli, gümrah, zarafatyana*

Müşayiət: *alçalma, çırtma çalma, nəfəs alətləri, zərb alətləri*

Ansamblın növü: *duet, trio, kollektiv*

| Rəqsin adı | Rəqsin xarakteri | Müşayiət | Ansamblın növü |
|---|---|---|---|
| “Yallı” | ⭐ ⭐ ⭐ | ⭐ ⭐ ⭐ | ⭐ ⭐ ⭐ |
| “Deliloy, deliloy dastanı” | ⭐ ⭐ ⭐ | ⭐ ⭐ ⭐ | ⭐ ⭐ ⭐ |

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və musiqisi Hüseyn Abdullayevə, sözləri İsmayıl Dadaşova məxsus olan "Azərbaycan" mahnısını öyrədir.

**T3** *(kollektiv və fərdi iş): Xorla ifa qaydalarına riayət etməklə "Azərbycan" mahnısını oxuyun.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Dərsdəki hansı fəaliyyətinizə görə özünüzü tərifləyərdiniz?*

# 24 AFİŞA

**Standart:** 1.2.1., 3.2.1.

**Məqsəd:** 1.Musiqi əsərlərini ifa edən musiqi alətlərini və kollektivləri tanıyır.
2.Dinlədiyi və ifa etdiyi musiqi əsərlərini temp və ritminə uyğun müşayiət edir.

**İnteqrasiya:** Azərb.d.: 2.2.1.

**İş forması:** kollektiv, kiçik qruplarla, cütlərlə

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, musiqi alətlərində çalma, cədvəllə iş, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları" (dərslik səh. 6), "Azərbaycan" mahnısının videoçarxı və ya səsyazması, zərb musiqi alətləri, iş vərəqləri

**Dərsin gedişi:**

### *Motivasiya*

Müəllim lövhədə konsertin adını yazır: "Canım mənim, məmləkətim!" Sonra sinfə suallarla müraciət edir:

– "Canım mənim, məmləkətim!" konserti dedikdə təsəvvürünüzdə nə canlanır? (Şagirdlərin cavabları dinlənilir.)

**T.s.:** *"Canım mənim, məmləkətim!" adlı konserti necə təşkil etmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə konsert proqramı haqqında məlumat verir (dərslik səh. 70). "Mahnının ifa qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır. Müəllim vokal məşqi keçirir və şagirdlər musiqisi Hüseyn Abdullayevə, sözləri İsmayıl Dadaşova məxsus olan "Azərbaycan" mahnısını oxuyurlar. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi cütlərə bölür və hər

cütə dəf və şaxşax musiqi alətlərini paylayır. Müşayiət qaydasını izah etmək üçün şagirdlərin diqqəti "Azərbaycan" mahnısının nəqəratına (dərslik səh. 70) yönəldilir. Mahnının nəqəratının əvvəlki 4 misrasını cütün bir üzvü dəfdə, sonrakı 4 misrasını cütün ikinci üzvü şaxşaxda, həmin 4 misranın təkrarını isə (dərslikdə əlavə olaraq göstərilib) cütün hər iki üzvü musiqi alətlərində (dəf və şaxşax) müşayiət edir (dərslik səh. 70).

***T1*** *(cütlərlə iş): Mahnını oxuyarkən nəqəratı işarələnmiş hecalara uyğun zərb musiqi alətlərində müşayiət edin.*

"Azərbaycan" mahnısı təkrar səsləndirilir. Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi 6 qrupa bölür və hər qrupa üzərində cədvəl olan iş vərəqi paylayır (dərslik səh. 71):

***T2*** *(kiçik qruplarla iş): "Canım mənim, məmləkətim!" konsert afişası üçün il boyu keçilənlərdən 6 musiqi nümunəsini seçib cədvəli doldurun.*

Sonra şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? "Canım mənim, məmləkətim!" konsertinə hansı incəsənət nümunələrini daxil edərdiniz?

# 25 KONSERTƏ HAZIRLIQ

**Standart:** 3.2.1., 3.2.2.

**Məqsəd:** 1. Afişadakı konsert nömrələrini *p* və *f* nüansları ilə ifa edir.
2. Musiqi nümunələrini temp və ritminə uyğun müşayiət edir.

**İnteqrasiya:** Azərb.d.:2.2.1.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalmaq, semantik cədvəl, dərsliklə iş

**Resurs:** repertuarda olan musiqi nümunələrinin videoçarxları və ya səsyazmaları, semantik cədvəl, zərb musiqi alətləri, rəqs atributları

**Dərsin gedişi:**

### *Motivasiya*

Müəllim lövhədə I-III siniflərə tədris illərinin sonunda keçirilən konsertlərinin adlarını yazır:

*1.Musiqi çələngi*
*2.Xoşbəxt uşaqlar*
*3.Sənə zəfər yaraşır, Azərbaycan!*

Sonra sinfə suallarla müraciət edir:

– Əvvəlki illərdə sinif konsertinə necə hazırlaşırdınız? (Şagirdlərin cavabları dinlənilir.)

*T.s.: Konsertə hazır olmaq nə deməkdir? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim sinif otağında afişa asır. Həmin afişa keçən dərsdə konsert üçün müəyyən olunmuş bir ümumi repertuar əsasında hazırlanmışdır. Müəllim şagirdlərə konsertə hazırlıq haqqında məlumat verir (dərslik səh. 72). "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 6) şagirdlərin yadına salınır.

Müəllim "Repetisiya" oyununu keçirir. Oyunda mahnıların ritmik müşayiəti müxtəlif üsullarla yerinə yetirilir: I mahnı – əl çalmaqla, II mahnı – zərb musiqi alətlərində, III mahnı isə metallofonda çalmaqla.

**"Repetisiya" oyununun qaydaları.**

Altı qrupa bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşsın. Masadan qiymətləndirmə cədvəlini və afişada qeyd olunmuş musiqi nümunəsinin (konsert nömrəsinin) adları yazılmış kartlardan birini götürüb öz qrupuna təqdim etsin. Növbə ilə qrup şəklində kartdakı musiqi nümunəsini ifa edin.

Digər qrupların çıxışı isə cədvələ görə qiymətləndirilir.

| Qrupun nömrəsi | Konsert nömrəsinin adı | Xarakterinə uyğun *p* və *f* ilə ifa ("+" və ya "-") | Temp və ritminə uyğun müşayiət ("+" və ya "-") |
|---|---|---|---|
| 1 | ☆ ☆ ☆ | ☆ ☆ ☆ | ☆ ☆ ☆ |
| 2 | ☆ ☆ ☆ | ☆ ☆ ☆ | ☆ ☆ ☆ |
| 3 | ☆ ☆ ☆ | ☆ ☆ ☆ | ☆ ☆ ☆ |
| 4 | ☆ ☆ ☆ | ☆ ☆ ☆ | ☆ ☆ ☆ |
| 5 | ☆ ☆ ☆ | ☆ ☆ ☆ | ☆ ☆ ☆ |
| 6 | ☆ ☆ ☆ | ☆ ☆ ☆ | ☆ ☆ ☆ |

***T1** (kollektiv və kiçik qruplarla iş): Verilmiş cədvəlin əsasında qrupların ifasını qiymətləndirin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıq müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Hansı konsert nömrəsi və kimin ifası daha çox xoşunuza gəldi?*

# 26 BAYRAM KONSERTİ

**Standart:** 3.2.2., 3.3.2.

**Məqsəd:** 1. Müxtəlif quruluşlu konsert nümunələrini ritminə uyğun müşayiət edir.
2. Konsert nömrələrini xarakterinə uyğun ifa edir.

**İnteqrasiya:** Azərb.d.: 1.2.4.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalmaq

**Resurs:** repertuarda olan musiqi nümunələrinin videoçarxları və ya səsyazmaları, zərb musiqi alətləri, rəqs atributları

**Dərsin gedişi:**

### *Motivasiya*

Müəllim "Canım mənim, məmləkətim!" adlı konsertə uyğun sinif otağını tərtib edir. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– "Canım mənim, məmləkətim!" konsertin tərtibatı haqqında nə deyə bilərsiniz? (Şagirdlərin cavabları dinlənilir.)

*T.s.: Konsertin əhval-ruhiyyəsini tamaşaçılara necə ötürmək olar? (Şagirdlərin fərziyyələri dinlənilir.)*

### *Fəaliyyət*

Müəllim şagirdlərə afişada qeyd olunan konsert nömrələrinin ardıcıllıqla ifa olunmasını xatırladır və vokal məşqi keçirilir. Sonra qruplar hazırladığı konsert nömrəsi ilə çıxış edirlər.

*T1 (kiçik qruplarla iş): Afişada verilmiş birinci mahnını oxuyarkən zərb musiqi alətlərində ritmik müşayiət edin.*

Afişada qeyd olunan rəqsə uyğun müxtəlif atributlar şagirdlərə paylanılır.

*T2 (kiçik qruplarla iş): Afişada verilmiş birinci rəqsi xarakterinə uyğun ifa edin.*

Müəllim metallofon musiqi alətini sinfə paylayır.

*T3 (kiçik qruplarla iş): Afişada verilmiş ikinci mahnını oxuyarkən metallofonda ritmik müşayiət edin.*

Afişadakı 2-ci rəqsi ifa etməzdən əvvəl müəllim metallofonları yığır və uyğun rəqs atributlarını paylayır.

*T4 (kiçik qruplarla iş): Afişada verilmiş ikinci rəqsi xarakterinə uyğun ifa edin.*

*T5 (kiçik qruplarla iş): Afişada verilmiş üçüncü mahnını oxuyarkən əl çalmaqla ritmik müşayiət edin.*

Afişada qeyd olunan rəqsə uyğun müxtəlif atributlar şagirdlərə paylanılır.

*T6 (kiçik qruplarla iş): Afişada verilmiş üçüncü rəqsi xarakterinə uyğun ifa edin.*

Şagirdlərin yerinə yetirdikləri tapşırıqlar tamaşaçı və qonaqlarla birgə müzakirə olunur.

### *Ümumiləşdirmə və refleksiya*

Müəllim şagirdlərə suallar verir və şagirdlər onları cavablandırırlar: Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Fəaliyyət zamanı nə işlər gördünüz? Bugünki konsertdə siz hansı hissləri keçirdiniz?

# “MUSİQİLİ HƏDİYYƏ” OYUNU

**(dərslik, səh.76-77)**

II yarım ildə reallaşması nəzərdə tutulan standarltar (1.1.3., 1.2.1., 1.2.2., 1.2.3., 2.1.2., 3.1.1., 3.1.2., 3.2.1., 3.2.2., 3.3.2., 3.3.3.) öz əksini V – VII bölmələrinin tədris materialında tapmışdır. Şagirdlərin bu müddətdə əldə etdikləri nailiyyətlərini yoxlamaq üçün dərslikdə “Musiqili hədiyyə” oyunu təklif olunur.



**“Şəngülüm, Şüngülüm, Məngülüm” musiqili tamaşasının məzmununa uyğun atalar sözü deyin.**

– Düşmən zəif olsa da, ehtiyatı əldən vermə.

– Eşitdiyinə inanma, gördüyünə inan.

*Öz variantı*



**Davul musiqi alətini tembrinə görə hansı musiqi alətinə oxşatmaq olar?**

– baraban

**Vivaldinin “Tufan” musiqi nümunəsi hansı musiqi alətlərinin ifasında səslənir: Avropa, yoxsa Azərbaycan?**

– Avropa musiqi alətlərinin ifasında



**“Xoş gəlmisən, Novruzum!” mahnısı hansı tempdədir?**

– orta



**“Dostluq mahnısı” ölçüsünə görə hansı janrı xatırladır?**

– marş




**“Bəxtiyar” kinofilmində “Dostluq mahnısı” hansı dinamik çalarlarla ifa olunur?**

– forte



**Misrası “Hər damlası laylay çalan göy Xəzərim var” olan mahnı hansı ladda yazılıb?**

– major (“Şən Azərbaycan”. Musiqisi Polad Bülbüloğlunun, sözləri Məstan Günərindir.)

**Bethovenin “Patetik sonata”sının ladına uyğun maskanı seçin.**

– minor



**“Balaca dirijor” mahnısında yuxarı registrli hansı musiqi alətlərinin adları çəkilir?**

– şeypur, qarmon, tütək

**Baraban musiqi alətinin səslənməsi hansı registrə aiddir?**

– aşağı



**“İgidlər” Azərbaycan xalq rəqsi ritminə görə hansı rəqslərə bənzəyir?**

– “Ləzgihəngi”

# MUSİQİ REPERTUARI

## Azərbaycana gəlsin

Musiqisi Tofiq Quliyevin,
sözləri Süleyman Rüstəmindir.

**Tələsmədən**




## Azərbaycan

Azərbaycan xalq rəqsi

**Hərəkətli**



# Bağçada gül

Azərbaycan xalq mahnısı




# 6 N-li pyes

"8 uşaq pyesi" məcmuəsindən

Musiqisi Elmira Nəzirovanındır.



# 7 N-li pyes

"8 uşaq pyesi" məcmuəsindən

Musiqisi Elmira Nəzirovanındır.

**Canlı**




# 8 N-li pyes

"8 uşaq pyesi" məcmuəsindən

Musiqisi Elmira Nəzirovanındır.

**Canlı**




# Qaraca qızla Ağcanın rəqsi

"Qaraca qız" baletindən

Musiqisi Əşrəf Abbasovundur.

**Şən , yüngül**



# Qızlarının xoru

"Ruslan və Lyudmila" operasından

Musiqisi Mixail Qilinkanındır.

**Tələsmədən**




# Qalanın dibində bir quş olaydım

Azərbaycan xalq mahnısı

**Mülayim**



# 5 N-li macar rəqsi

Musiqisi İohannes Bramsındır.




# 5 N-li macar rəqsi



# 5 N-li macar rəqsi

Musiqisi İohannes Bramsındır.



## Qoy skripkaları kökləsinlər

Çex xalq mahnısı

**Canlı**




## Cəngi

"Koroğlu" operasından

Musiqisi Üzeyir Hacıbəylinindir.

**Tez**



# El yallı

Azərbaycan xalq mahnısı



# Zəfər marşı

Musiqisi Rauf Məmmədovun,
sözləri Cəlal Qurbanovundur.

**Marş tempində**



# Qarabağ

Musiqisi Rəşid Şəfəqin,
sözləri Ələmdar Quluzadənindir.



# Laylay

"Sevil" operasından

Musiqisi Fikrət Əmirovundur.

**Mülayim**




# Fəsillər

Musiqisi Cəlal Abbasovun,
sözləri Rafiq Yusifoğlunundur.

**Canlı**



# Əməyi sevirik biz!

Musiqisi Rəşid Şəfəqin,
sözləri Rüfət Əhmədzadənindir.

**Canlı**




# Dağlar

Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.

**Canlı**



# Qaytağı

Azərbaycan xalq rəqsi




# Ləzgihəngi

Ləzgi xalq rəqsi



# Əks-səda

Musiqisi Hökümə Nəcəfovanın,
sözləri Xanımana Əlibəylinindir.




# Dağlarda əks-səda

pyes

Musiqisi Samuil Maykaparındır.



# Yolka nəğməsi

Musiqisi Soltan Hacıbəyovun,
sözləri Mirmehdi Seyidzadənindir.

**Tez**




# Zarafatyana kanon

Musiqili oyun

**Təmkinli**



# Qəhrəmanlar

Musiqisi Ramiz Mustafayevin,
sözləri Tofiq Mütəllibovundur.




# Hind gözəlinin rəqsi

"Yeddi gözəl" baletindən

Musiqisi Qara Qarayevindir.



# Dilarə

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Tofiq Mütəllibovundur.

**Bir az hərəkətli**




# Hekayə

pyes

Musiqisi Qara Qarayevindir.

**Tələsmədən**



# Dostluq mahnısı

"Bəxtiyar" kinofilmindən

Musiqisi Tofiq Quliyevin,
sözləri Ənvər Əlibəylinindir.




# "Qala" kinofilmindən musiqi

Musiqisi Cahangir Zülfüqarovundur.



# Keçinin mahnısı

*"Şəngülüm, Şüngülüm, Məngülüm" musiqili tamaşasından*

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Ramiz Heydərindir.

**Orta tempdə**




# Balaca dirijor

Musiqisi Aya Sultanovanın,
sözləri Teymur Elçinindir.

**Zarafatyana**



# Yaşa, mənim xalqım!

Musiqisi Rauf Məmmədovun,
sözləri Zivər Ağayevanındır.



# Türksayağı rondo

Sonata N 11, III hissə

Musiqisi Volfqanq Amadey Motsartındır.




# Xoş gəlmisən, Novruzum!

Musiqisi və sözləri
Sədət Fərziyevanındır.



# İgid əsgər, möhkəm dayan!

Musiqisi və sözləri Şahin Musaoğlunundur.

**Marş tempində**



# Patetik sonata

I hissə

Musiqisi Lüdviq van Bethovenindir.



# 2 N-li ekspromt

Musiqisi Fikrət Əmirovundur.




# Qızılgül

Musiqisi Hatəm Nəbioğlunun,
sözləri Abdulla Şaiqindir.



# Şən Azərbaycan

Musiqisi Polad Bülbüloğlunun,
sözləri Məstan Günərindir.



# "Tufan"

2 N-li konsertdən ("Yay")

Musiqisi Antonio Vivaldinindir.



# İgidlər

Azərbaycan xalq rəqsi

**Çox cəld**




# Şəkillər haqqında mahnı

Musiqisi Qriqori Qladkov-Yuginin,
sözləri Aleksandr Kuşnerindir.

**Mülayim, hərəkətli**



# Yallı

Azərbaycan xalq rəqsi




# Deliloy, deliloy dastanı

Türk xalq rəqsi



# Azərbaycan

Musiqisi Hüseyn Abdullayevin,
sözləri İsmayıl Dadaşovundur.

**Canlı**



# İSTİNAD EDİLMİŞ MƏNBƏLƏR


## Azərbaycan dilində

**1.** İradə Məmmədova. Uşaqların musiqi dünyası. Bakı, 2004.
**2.** Kamal Həsənov. Azərbaycan qədim folklor rəqsləri. "İşıq" nəşriyyatı, Bakı, 1988.
**3.** N.Bağırov. "Musiqinin elementar nəzəriyyəsi". Bakı, 1982.
**4.** N.Mirməmmədli. Solfecio. Bakı, 2017.
**5.** N.Mirzəyeva. "Xorşünaslıq". Bakı, 2007.
**6.** Ramiz Zöhrabov. Bəstəkarlarımızın portreti. "Gənclik" nəşriyyatı, Bakı, 1997.
**7.** Y.Həbibov. "Dirijorluq və onun tədrisi metodikası". Bakı, 1999.
**8.** Y.Kərimov. "Təlim metodları". Bakı, 2007.
**9.** Z.İsmayılova. İzahlı xor lüğəti. Bakı, 2009.
**10.** Zülfiyyə Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. UNICEF, 2007.
**11.** Zümrüd Sədraqızı. Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxəbatı. Bakı, 2005.
**12.** "Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları". Elmi redaktor İsgəndər İsgəndərov. "Təhsil" nəşriyyatı, Bakı, 2008.

## Rus dilində

**13.** Критская Е.Д., Сергеева Г.П., Шмагина Г.С. Методика работы с учениками. "Музыка" 1-4 класс. Издательство "Просвещение". Москва, 2002.
**14.** Методика музыкального воспитания в детском саду (под редакцией Н.А.Ветлугиной). Издательство "Просвещение". Москва, 1982.

## İnternet resursları

**15.** Azərbaycan rəqslərinin səhnə təcəssümü http://konservatoriya.az/?p=3569
**16.** Diferensial təlim haqqında http://www.tipii.edu.az/az/article/554-diferensial-talim-haqqinda
**17.** www.bloqspot.com. (Azərbaycan xalq rəqsləri).
**18.** www.unisef.org (tərkibinə təlim materiallarına müxtəlif səviyyələr üçün istinadlar daxildir).
**19.** www.composersunion.az (Azərbaycan Bəstəkarlar İttifaqı)
**20.** www.kurikulum.az
**21.** www.educult.az
**22.** http://music.mctgov.az
**23.** http://uzeyir.musigi-dunya.az
**24.** https://portal.azertag.az/az/encyclopedia/post/11410
**25.** http://mk.musigi-dunya.az/songs.html
**26.** http://www.aduf.az/kollektiv.html